www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 mart 2016-cı il Çərşənbə № 60 (6381) Qiymıəti 60 qəpik

**Xəbər**

## Mehdiabad qəsəbəsində yanğın: iki uşaq öldü

yazısı səh.3-də

**Gündəm**

### İlham Əliyevdən kritik Ankara səfərində önəmli mesajlar



Dövlət başçısı "Türkiyənin yanındayıq" dedi; Ərdoğan: "Azərbaycan qara günün dostu olduğunu göstərdi"; ölkələr arasında 6 sənəd imzalandı

yazısı səh.9-da

### Keçmiş nazir və YAP-çı deputat Samir Şərifov haqda nə dedi?

yazısı səh.5-də

### "Qarabağ klanı"nın zülmündən bezən ermənilərin Türkiyəyə axını güclənib

yazısı səh.11-də

### Maşallah Əhmədovun dustaqlıq müddəti uzadıldı

yazısı səh.6-da

### İŞİD-in tərkibində döyüşmüş azərbaycanlının məhkəməsi başlayır

yazısı səh.13-də

### Sahibkarlar Ağcabədinin icra başçısını ittiham edir

yazısı səh.10-da

### Gizli dinləmə qurğuları - "böcək"lər haqda bilmədiklərimiz

yazısı səh.12-də

### Əli Kərimlinin müşavirinə 3 il həbs verildi

yazısı səh.6-da

### Deputatlarımız daha silah gəzdirmək istəmir

yazısı səh.3-də

### Dünyanın qorxulu röyası - canlı bombalar...

yazısı səh.13-də

### 18 neftçidən 103 gündür xəbər yoxdur

yazısı səh.14-də

### Neft 50 dollar olsa, manat canlanacaqmı?

yazısı səh.15-də

### Azərbaycanın zəngin adamları var-dövlətlərini xilas etməyə çalışırlar

# VARLILARIMIZ MİLYONLARINI TORPAĞA BASDIRIR - İLĞINC TƏFƏRRÜAT

Məlumatlı mənbələrdən verilən bilgiyə görə, zənginlər hektarlarla ərazi alıb pullarını kartof və soğan əkməyə yönəldiblər; bəs, onları torpağa bağlayan təkcə əllərində qalan pulun devalvasiyadan qorunmasıdırmı və ya böhran iqtisadiyyatıdırmı...




yazısı səh.5-də

## Abutalıbova ciddi zərbə-parkomatlar əlindən alınır

Yaxın vaxtlarda paytaxtda parkinqlərə və duracaq yerlərinin təşkilinə nəzarət BŞİH-dən alınaraq Bakı Nəqliyyat Agentliyinə veriləcək

yazısı səh.5-də



Tahir Kərimov

### Salyanın sabiq başçısının həbsinə hazırlıq gedir

yazısı səh.7-də



### Rasi-Zadə hesabat verdi - deputatlardan sərt tənqidlər

yazısı səh.4-də



### Eldar Mahmudovun "KQB agenti" olmasına reaksiya gəldi

yazısı səh.6-da

## Ərdoğan gələn ay Azərbaycana gələcək



**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan aprelin 25-26-da Azərbaycana gələcək. Virtualaz.org xəbər verir ki, bunu o, Ankarada keçirilən Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 5-ci iclasından sonra keçirilən mətbuat konfransında deyib.**

Səfərin məqsədi Bakıda keçiriləcək BMT Sivilizasiyalararası Alyansının Bakıda keçirilək 7-ci qlobal forumunda iştirak etməkdir.

## Xalq artistinin sağ ayağı da amputasiya edildi


Muxtar Maniyev

**Azərbaycanın xalq artisti Muxtar Maniyevin sağ ayağı, dizdən yuxarı amputasiya edilib. Bu barədə "Report" Akademik M.A.Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzindən verilən məlumata istinadən xəbər yayıb.**

Mənbə M.Maniyevin şəkər xəstəliyindən əziyyət çəkdiyini bildirib: "Onun vəziyyəti yenidən ağırlaşıb. Huşu pozulub". Həkim bildirib ki, xəstə sağ ayağının dabanında və baş barmağında yaranan xoraya görə əməliyyat olunub.

80 yaşlı xalq artisti Muxtar Maniyev qan təzyiqi və şəkərli diabet xəstəliyindən əziyyət çəkir. Ötən il aktyorun sol ayağı topuqdan aşağı amputasiya edilib.

## Bayram günlərində banklar hansı günlər işləyəcək?

**Mərkəzi Bankın Novruz bayramı günlərindəki iş qrafikində bayramla əlaqədar heç bir dəyişiklik nəzərdə tutulmayıb. AMB-nin mətbuat xidmətinin rəhbəri Namiq Əliyev bildirib: "Qeyri-iş günləri qüvvədə qalır".("Report").**

"Kommersiya banklarının iş qrafiki isə, yəni bayram və qeyri-bayram günləri bankların özləri tərəfindən müəyyən edilir", - deyə N.Əliyev qeyd edib.

AMB rəsmisi əlavə edib ki, banklar tərəfindən valyuta mübadilə əməliyyatları qanunvericiliyə uyğun olaraq bankların baş ofisində, filial və şöbələrində, o cümlədən mübadilə şöbələrində, eləcə də ödəniş terminallarında həyata keçirilir. Bununla yanaşı, turizm xidməti göstərən obyektlərdə, xüsusilə mehmanxana və hava limanlarında valyuta mübadilə ehtiyaclarının operativ qarşılanması məqsədilə bankların valyuta mübadilə şöbələrinin fəaliyyəti davam etdirilir.

"Ölkəyə gələn turistlər hotellər, ictimai-iaşə və digər xidmət obyektlərində ödənişləri POS-terminallar vasitəsilə həyata keçirə, nağd vəsaitə ehtiyacı olanlar isə bankomatlar vasitəsilə nağd pula olan tələbatlarını ödəyə bilərlər", - deyə N.Əliyev vurğulayıb.

## ATV-nin əməkdaşının üçəm nəvəsi oldu

**Gürcüstanda azərbaycanlı ailəsində üçəm doğulub. APA xəbər verir ki, martın 14-də Qardabani rayonunun Nəzərli kəndindən olan Nuridə Abdullayeva Tiflisin Quduşauri doğum xəstəxanasında üçəm körpə dünyaya gətirib. Körpələrdən ikisi qız, biri oğlandır. Onlar Nuridə və Oqtay Abdullayevin ilk övladlarıdır.**

Üçəmlərin babası ATV-nin Gürcüstan üzrə xüsusi müxbiri Nadir Almazoğludur. N. Almazoğlu APA-nın əməkdaşına bunları deyib: "Bir il əvvəl ailə quran qızım Nuridənin üç övladı olub. Qızımın və körpələrin durumu normaldır. Üçəmlərdən birinin çəkisi 1,9, digərləri 1, 95 kq-dır. Boyları isə 45, 46 və 47 sm-dir. Onlara Elif, Eylül və Elvin adları qoyulub".


"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**


# İlhamənin baş daşı da qalmaqala səbəb oldu

**Xalq artisti, mərhum sənətkar İlhamə Quliyevanın 40 mərasiminə az müddət qalıb. Lakin mərhumun baş daşının qoyulması ətrafında qalmaqal yaranıb. "Qafqazinfo"nun məlumatına görə, Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamentinin Əhaliyə Vətəndaşlıq Xidməti Trestinin baş mühəndisi Sabir Həsənov cebhe.info-ya açıqlama verərək bildirib ki, İ.Quliyevanın qəbir daşının hazırlanması üçün sifariş verilib:**



"Bunu Mədəniyyət və Turizm Nazirliyi ilə razılaşdırmışıq. Bütün maddi vəsait dövlət tərəfindən qarşılanacaq. Xalq artistinin ailəsi isə bununla bağlı bizə heç bir sifariş verməyib. Biz də ümumi standartlara uyğun olaraq mərhum xalq artisti üçün qəbir daşı hazırlatdıracağıq. Artıq bütün işlər yekunlaşmaq üzrədir. Bir həftə ərzində qəbir daşı qoyulacaq".

Mədəniyyət və Turizm Nazirliyindən isə aznews.az-a verilən açıqlamada S.Həsənovun dedikləri təkzib edilib. Qurumun ictimaiyyətlə əlaqələr sektorunun rəhbəri Vüqar Şixəmmədov bildirib ki, Mədəniyyət və Turizm Nazirliyi qəbirüstü abidənin qoyulması məsələsi ilə məşğul olmur:

"Xalq artisti, mərhum İlhamə Quliyevanın qəbir daşının hazırlanmasının nazirliyə aidiyyəti yoxdur. Bu işlə Mənzil Kommunal Təsərrüfatı Departamentinin Əhaliyə Vətəndaşlıq Xidməti Tresti məşğul olur. Bu, həmişə belə olub".

**Müğənni Əli Mirəliyev "Qafqazinfo"ya açıqlamasında məsələ ilə bağlı danışmaq istəmədiyini bildirib:**

"Millət niyə narahat olur? Bunun kimə nə aidiyyəti var? Burda nə var ki? Ya onlar, ya da ailə üzvləri baş daşını qoyacaq. Sizin mövzunuz yoxdu yazmağa? Bu nə söhbətlərdi?"

**Lent.az-ın əməkdaşı məsələ ilə bağlı mərhum xalq artistinin oğlu Orxan Nadirovla əlaqə saxlayıb. O isə bildirib ki, İ.Quliyevanın qəbir daşı hazırdır:**

"Qəbir daşı artıq hazırdır. Sabah mən qəbir daşına baxacam, bəyənsəm onu qoyacaqlar. Bu daşın maddi tərəfini mən yox, dövlət öz üzərinə götürüb".



## Bu gün qar yağacaq?

**Martın 16-da Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı, yarımadanın bəzi yerlərində sulu qara keçəcəyi, günün ikinci yarısında yağıntının tədricən kəsiləcəyi gözlənilir. Güclü şimal-qərb küləyi gündüz müləyimləşəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Qafqazinfo"ya daxil olan məlumata görə, havanın temperaturu Bakıda və Abşeron yarımadasında gecə 3-5, gündüz 5-7 dərəcə isti olacaq.

Atmosfer təzyiqi 760 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək, nisbi rütubət 85-95 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında isə arabir yağış, bəzi yerlərdə sulu qar, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, gecə və səhər ayrı-ayrı yerlərdə intensiv olacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 1-5, gündüz 6-11 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, gündüz 0-5 dərəcə isti olacaq.


Herbert Zalber

## Avropa İttifaqının xüsusi nümayəndəsi Bakıya gəlib

**Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Zalber çərşənbə axşamı Bakıya ikigünlük səfərə gəlib. Diplomatik mənbədən «Turan»a verilən məlumata görə, görüşlər və danışıqlar zamanı Zalber Azərbaycan rəhbərliyi ilə Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı danışıqlar aparacaq.**

## Bərzani "kürdlərin dövlət qurmasının vaxtı çatıb" dedi



**"Yaxın Şərqdə sərhədlərin yenidən nəzərdən keçirilməsinin zamanı gəlib. Kürdlərin də bir dövləti olmalıdır". APA-nın "Hürriyet"ə istinadən verdiyi xəbərə görə, bu barədə İraqın şimalındakı kürd muxtariyyətinin lideri Məsud Bərzani "Phliladelphia Media Network" adlı agentliyə açıqlamasında bildirib.**

M. Bərzani deyib ki, Səddam Hüseynin devrilməsindən sonra İraqda məzhəb ayrı-seçkiliyi ölkəni parçalayıb: "Yaxın Şərqə baxarkən köhnə sərhədlərin ancaq kağız üzərində qaldığını görürük. Bölgədəki reallıqlar Yaxın Şərqin xəritəsini yenidən cızır".

Gələcəkdə İraqda "Sünnistan" qurulması ehtimalı olduğunu söyləyən M. Bərzani Suriyada Əsəd rejiminin fəaliyyəti nəticəsində məzhəblərarası savaşın ölkəni parçaladığını vurğulayıb: "Kürdlərə gəlincə, onlar 1923-cü il Lozanna anlaşmasından bu yana müstəqilliyi xəyal edir. Həmin müqavilərə əsasən Osmanlı imperatorluğunun süqutundan sonra kürdlərə də bir dövlət verilməsi öhdəliyinə əməl edilmədi".

Bununla yanaşı, M. Bərzani kürd dövləti ilə bağlı konsepsiyasının ancaq İraq Kürdüstanını əhatə edəcəyini deyib: "ABŞ bizə qarşı hərəkət etməz, əgər qarşı çıxmasa, minnətdar olarıq".

## QAT Anjey Kasprşiki ermənipərəstlikdə ittiham etdi

**QAT Anjey Kasprşiki ermənipərəstlikdə ittiham edən bəyanat qəbul edib. Bəyanatda deyilir:**

"Qarabağ Azadlıq Təşkilatı ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşikin son dövrlərdə mandatına uyğun olmayan hərəkətlərini qətiyyətlə pisləyir və hesab edir ki, Azərbaycan hakimiyyəti bu məsələyə diqqətlə yanaşmalıdır. A.Kasprşik son aylar ərzində təkbaşına Azərbaycanın işğal olunmuş ərazilərinə səfərlər edir, qondarma rejimin rəhbəri Bako Saakyanla və digər quldurlarla görüşür. A.Kasprşik izah etməlidir ki, bu səfərlərdə onun məqsədi nədən ibarətdir. Bir şey aydındır ki, onun bu səfərləri erməni lobbisinin sifarişi ilə həyata keçirilir və qondarma rejimin "leqallaşdırılması"na, Dağlıq Qarabağdakı separatçıların təbliğinə yönəlib. Hər dəfə bu səfərlərdən sonra erməni mətbuatı, hətta bəzi xarici ölkə KİV-ləri də A. Kasprşikin görüşdüyü qondarma rejimin rəhbərini "Dağlıq Qarabağ Respublikasının prezidenti" kimi təqdim edir. A. Kasprşik və digərləri bunu görmürlərmi?! Əlbəttə, görürlər və buna şərait yaradırlar. Bu hal təkcə A. Kasprşikə deyil, Minsk Qrupunun həmsədrlərinə də aiddir. Onların işğal olunmuş ərazilərə səfərləri qondarma rejimin təbliğinə xidmət edir.

Bütün bunlar bir daha göstəriri ki, Minsk Qrupunun həmsədrləri, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin üzdəniraq "fəaliyyəti" münaqişənin ədalətli həllinə deyil, status-kvonun, işğal vəziyyətinin saxlanılmasına, Dağlıq Qarabağdakı qondarma rejimin təbliğinə yönəlib. Biz həmişə dediyimiz tələbi bir daha təkrar edirik ki, Minsk Qrupu həmsədrlərinin fəaliyyətinə son qoyulmalıdır, həmsədrlərin, "şəxsi nümayəndə"nin işğal olunmuş ərazilərə səfərlərinə, orada qondarma rejimin nümayəndələri ilə görüşlərinə imkan verilməməlidir".


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 60 (6381) 16 mart 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Bu gün dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycan mətbuatında da "yüngül", parıltılı xəbərlərə maraq daha çoxdur. Nədənsə oxucular ciddi, araşdırma tipli, siyasi-analitik xəbərləri oxumaq istəmir. Hətta əksər hallarda sözün əsl mənasında əsl sənətkar olan incəsənət xadimlərinin müsahibələri belə şou-qalmaqallı xəbərlərin kölgəsində qalır.**

# Ciddi yazılar niyə oxunmur?

## Zeynal Məmmədli: "İndi Azərbaycanda daha çox "bulvar media"sı üstünlük təşkil edir"

**Bəs bunun səbəb nədir? İnsanların intellektual səviyyəsi, yoxsa yazıların peşəkarlığı bu tendensiyanı yaradır?**

**Psixoloq Elmir Rüstəmovun sözlərinə görə, bu, informasiya əsrinin irəli sürdüyü tələblə əlaqədardır:** "İnformasiya əsrinin öz tələbləri, yanaşmaları var. Burda şou-biznes və idman sahəsi daha öndə, daha aktual olanıdır. Onların özlərində də bir limit var. Belə ki, hər gələn yeni nəsil daha çox çalışır ki, daim gündəmdə qalsın. Bu, informasiya əsrinin irəli sürdüyü tələbdir. Əlbəttə, burda "qara piar", yanlış məlumatlar, gündəliyi dəyişmək kimi məsələlər də var. Bütün bunların çox böyük psixoloji mənfi fəsadları da var. Mənfi fəsadlar ondan ibarətdir ki, artıq dəyərlər arxa planda qalır. Dəyər və yanaşması daha çox gündəm yanaşması kimi dəyərləndirilir. İnsanlar da buna daha tez adaptasiya olunur. Məsələn, bir müğənni soyunub şəkil çəkdirir, hamı deyir, pisdir, sabah uzun geyinir, deyirlər ki, bundan yoxdur. Burda əziyyət çəkən digər insanlar olur. Onların həyatla bağlı konkret yanaşmaları olmur, əhval-ruhiyyələri tez-tez dəyişir, əsəbi, aqressiv olurlar. Beləliklə, bu tendensiya insanlarda kütləvi nevroz yaradır. Bunun fəsadları bizim insanlarda hələ bir qədər keçəndən sonra büruzə verəcək. Qətl, ailədaxili münasibətlərə, münaqişələrə diqqət etsəniz, orda əslində həmin informasiya əsrinin diktə etdiyi problemlərin nəticəsini görə biləcəksiz.

Bəzən araşdırma yazılar da insanlarda ikrah hissi yaradır. Çünki bir çox hallarda bu cür yazılar konkret qurumların marağına xidmət etmiş olur".



**Media eksperti Zeynal Məmmədli ciddi araşdırmaların həmişə şou xəbərlərindən daha çox diqqət çəkdiyini bildirdi:** "Bu, aksiomdur və sübuta ehtiyacı yoxdur. O başqa məsələdir ki, ciddi araşdırma deyəndə nəyi nəzərdə tuturuq, nə anlayırıq. Burda ciddi araşdırma anlayışını adekvat düşünürükmü? Adekvat düşünürüksə, deməli, problem yoxdur. Hər şey bütövlükdə cəmiyyətdə mediaya, sərbəst ifadəyə, düşüncəyə, insan azadlığına münasibətdən irəli gəlir.

İndi Azərbaycanda daha çox "bulvar mediası" üstünlük təşkil edir. O, "sarı media" deyil. Ciddi, pornodan, ədəbsiz ifadələrdən uzaq yazsa da, bu "bulvar mediası" sayılır. Çox dərinə getməyən, maqazinvafaciəyə meyl edir? Onlara ciddi material verməyəndə, baş verən hadisələrin onların həyatları ilə birbaşa bağlantısı olmayanda, insanların təsir və qavrayış səviyyələri tələb ediləndən qat-qat aşağı olanda. Beləliklə, öz problemləri ilə tək-tənha qalır".

**Zeynal Məmmədli mətbuatda ciddi peşəkarlıq problemi olduğunu vurğulayıb:** "Bu, doğrudan da diqqətdən kənarda qalan, çox önəmli bir mövzudur. Mətbuatda peşəkarlıq problemi var. "Tabloid", "sarı media" xəbərləri populyardır və asanlıqla oxunur, bilgi və sairə tələb etmir. Populyar olanı faydalı, faydalı olanı da populyar etmək lazımdır. Bu, artıq xüsusi peşəkarlıq tələb edir. Bu həqiqətdir. Hazırda Azərbaycan mediasının bel sütununu həvəskarri, insanları əyləndirməyə çalışan xəbərləri verən media "sarı media"dır. İnsanlar bu cür xəbərləri ancaq izləyir və unudur, çünki onlar düşündürmək üçün deyil. Bəzən ona "tabloid media" da deyilir. Burda məqsəd səni ağlatmaq, sızlatmaq, duyğulandırmaqdır. Kapitalist dünyasında bu məqsədlər aydındır. İnsanlar nə zaman yazılar təşkil edir. Bir peşəkarı qeyri-peşəkardan nə ayırır? Uzun müddət işləməsi, daha çox maaş alması və yaxud daha çox bilgili, təhsilli olmasımı? Bu sualların çoxu cavabsız qalacaq. Buna da uyğun insan yetiririk. İnsan həzm etmədiyi şeyi niyə götürsün ki? Buna görə də insanların yazılara olan münasibətini sağlam münasibət hesab edirəm, burda təəccüblü heç nə yoxdur. İnsanların həyatına müdaxilə edib, onun maraqlarına uyğun yazılsa, görün necə oxunar. Doğrudur, bir müddət oxuyanların sayı az olacaq. Lakin tendensiya artmağa doğru gedəcək".

**Musavat.com saytının baş redaktoru Xalid Kazımlının sözlərinə görə isə insanlar dünyanın dərd-sərindən qısa müddətlik də olsa qurtulmaq üçün daha çox parıltılı xəbərlərə üstünlük verirlər:**

"Bunun əsas səbəbi odur ki, oxucular ciddi məsələlərə, problemlərə dair yazılar oxumaq istəmirlər. Bu, bütün dünya üçün keçərlidir. Hər yerdə əyləncə xarakterli yazılar çox oxunur, bu sayaq verilişlərə çox baxılır. Görünür, insanlar televiziya və qəzetlərdən, ümumilikdə mediadan mənfi enerji almaqdan usanıblar, daha pozitiv şeylər izləmək, dünyanın dərd-sərindən qısa müddətdə olsa da can qurtarmaq istəyirlər. Yoxsa ölkənin ümdə problemlərinə dair yazını, tutaq ki, 200 oxucunun, bir müğənninin paltarını küləyini qaldırmasına dair xəbəri isə 2 min nəfərin oxumasını heç cür sağlam məntiqlə izah etmək mümkün deyil".

❑ **Xalidə GƏRAY**

# Deputatlar daha silah gəzdirmək istəmir

## DİN rəsmisi Milli Məclisin son çağırışlarında heç bir deputatın silah üçün müraciət etmədiyini deyir



**Azərbaycanda deputatlar xidməti silah gəzdirmək hüququna malikdirlər. Milli Məclis üzvlərinə silahın verilməsi ilk olaraq 1997-ci il dekabrın 30-da qəbul edilən "Xidməti və mülki silah haqqında" Qanunla tənzimlənib.**

2001-ci ilin oktyabrında isə "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanuna edilən dəyişikliyə görə, deputatın təhlükəsizliyini təmin etmək məqsədi ilə ona qanunvericiliklə müəyyən edilmiş qaydada xidməti silah verilə bilər. **Sitat:** "Deputatın öz səlahiyyətlərini icra etdiyi bütün müddət ərzində qanunvericiliklə nəzərdə tutulmuş qaydada və hallarda xidməti silahı saxlamaq, gəzdirmək və təyinatı üzrə istifadə etmək hüququ vardır, zəruri hallarda onun təhlükəsizliyi təmin edilir".

Amma burada bir məqamı xatırlatmaq lazımdır. Deputatlara silahla iclas zalına daxil olmaq qadağan edilib. Milli Məclisin üzvü iclas zalına daxil omazdan öncə silahını nəzarətçiyə təhvil verməlidir.

Əvvəlki çağırışlarda Milli Məclisin üzvlərindən bəziləri özü ilə qanuni silah gəzdirib. Amma silahlanmış deputatlardan kiminsə həyatı üçün nə vaxtsa təhlükəli hallar yaranmayıb.

II çağırış Milli Məclisdə 20-yə yaxın deputatın xidməti silahı olub.

III çağırışda Milli Məclisdən silah üçün Daxili İşlər Nazirliyinə müraciət edən deputatların sayının xeyli çox olduğu bildirilir. Amma onların əksəriyyətinin müraciətinə mənfi cavab verilib.

Azərbaycan Milli Məclisinin deputatları qanunla xidməti silah almaq üçün əvvəlcə Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinə müraciət etməlidirlər. Burada müraciətinə müsbət cavab verilən millət vəkili daha sonra nazirliyin Təchizat İdarəsindən xidməti silah ala bilər. Qanunla hər bir silah alan deputat dövlətə müəyyən edilmiş rüsum ödəyir. Deputata silahla birgə 16 nömrələnmiş patron da verilir. Silah gəzdirmək istəyən millət vəkili öncə onunla davranma qaydalarını bilməlidir. Bunun üçün həmin deputat DİN-in müvafiq qurumuna dəvət olunaraq təlimatlandırılır. DİN silah almaq istəyən deputatın sağlıq durumunu nəzərə alır.

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Ehsan Zahidov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, nə budəfəki, nə də daha öncəki çağırışda xidməti silah üçün müraciət edən olub. Müsahibimizin fikrincə, bu, ölkədə sabit kriminogen durumun olması ilə əlaqədardır:** "Buna görə də deputatlar silah gəzdirmək istəmirlər. Özlərini təhlükəsiz durumda hiss etdikləri üçün belə bir tələbləri, müraciətləri də olmayıb. Bu barədə mediaya verdikləri açıqlamalardan da belə anlaşılır ki, ölkədə həyatları üçün hər hansı təhlükə yaradan hal görmürlər. Amma mühüm bir məqamı da deməliyəm ki, müraciət də işin tam həlli demək deyil. Deputat müraciət edirsə, nazirlikdə bu müraciət araşdırılır. Araşdırma zamanı deputatın silahla davranması kimi hallar nəzərə alınır. Adi bir misal: məsələn, ömür boyu əsgərlikdə olmayan bir nəfərə silah verilməsi düzgün deyil. Əgər deputat da normativ tələblərə uyğun gəlirsə, onun silah müraciəti təmin oluna bilər".

E.Zahidov dedi ki, hüquq-mühafizə orqanları sıravi insanların, eləcə də deputatların təhlükəsizliyini yüksək səviyyədə qoruyurlar.

❑ **Sevinc TELMANQIZI**

# Mehdiabad qəsəbəsində yanğın: iki uşaq öldü

**Abşeron rayonunda ev yanıb, 3 və 5 yaşlı iki uşaq ölüb. Virtualaz.org Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, Abşeron rayonu, Mehdiabad qəsəbəsində vətəndaşa məxsus ümumi sahəsi 40 kv.m olan birmərtəbəli 2 otaqlı evin yanar konstruksiyaları yanıb. Yanğının kəşfiyyatı zamanı ev sahibinin tüstüdən zəhərlənən övladları 2011-ci il təvəllüdlü Zeynalov Nihat Ruslan oğlu və 2013-cü il təvəllüdlü Zeynalov Sadiq Ruslan oğlu yanğınsöndürənlər tərəfindən xilas olunub, lakin xəstəxanaya aparılarkən yolda hər iki uşaq vəfat edib.**

Yaxınlıqda olan qonşu evlər yanğından mühafizə olunub.

Alov saat 13:00-da yanğınsöndürənlər tərəfindən söndürüb.

YENİ MÜSAVAT
N 60 (6381) 16 mart 2016



# Deputatlar hökuməti "topa tutub"... hesabatını qəbul etdilər

**Məmurlara ünvanlı sərt etirazlar səsləndi:** "Xalq yorulub artıq..."; "Kim deyə bilər ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun qəbuluna düşmək, onunla hansısa problemləri həll etmək mümkündür?"; "insanlar illərlə məhkəmə qapılarında qalır"

**Martın 15-də spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirildi. Baş nazir Artur Rəsi-Zadənin də iştirak etdiyi toplantıda Nazirlər Kabinetinin 2015-ci ildə fəaliyyəti haqqında hesabatı dinlənildi və müzakirə edildi.**

Spiker baş naziri və hökumət üzvlərini salamladıqdan sonra Türkiyənin paytaxtı Ankara şəhərində törədilmiş terror aktı nəticəsində həlak olanlara rəhmət dilədi, yaralananlara şəfa arzuladı. Daha sonra spikerin təklifi ilə parlamentdə terror şəhidlərinin xatirəsi 1 dəqiqəlik sükutla yad edildi.

Bundan sonra Azərbaycanın baş naziri Artur Rasi-Zadə Nazirlər Kabinetinin 2015-ci ildə fəaliyyəti haqqında 20 dəqiqəlik hesabatını təqdim etdi. Müzakirələr zamanı çıxış edən deputat Yevda Abramov hökumətin 2015-ci ildəki fəaliyyətini kafi qiymətləndirib və hesabata səs verəcəyini bildirib.

**Y.Abramov bundan sonra sərt tənqidlərini dilə gətirib və hökumətin fəaliyyətini tənqid edib:** ""Barmek" gedəndən sonra vətəndaşların adına kütləvi şəkildə borc yazılır. Mənim özümə 787 manat borc yazılıb. Hansı ki, neçə illərdir Bakıda yaşayıram. 20 il bundan qabaq ölmüş adamın 900 manat borcu var. Xalqı ayağa qaldırmaq lazım deyil. Sonra da deyirlər ki, Qubada xalq ayağa qalxdı. Bəli, 5-10 nəfər ayağa qalxmışdı. Mən də oradaydım. Belə-belə şeylərdən xalq narazı qalır. Amma xalq prezidentin şəkli ilə küçələrə çıxır. Deməli, xalq prezidentdən razıdır. Deməli, prezident hamıdan çox işləyir, bütün nazirlərdən, hətta bizdən də çox işləyir. Rusiyada nazirlər bütün günü televiziya ilə xalqın qarşısına çıxır, məlumat verirlər. Bizdə isə bunu görmürük. Bunun əvəzində müğənnilərin didişməsi gedir. Xalq yorulub artıq..."

**Deputat Elmira Axundova deyib ki, ünvanlı sosial yardım əhalini ələbaxımlılığa öyrədib:** "Bu, sosial institut kimi özünü o qədər də doğrultmadı. İnsanlarımızın işlə təmin olunması üçün pilot layihələr həyata keçirilməlidir".

**Deputat Musa Quliyev** isə Azərbaycanın özünü kənd təsərrüfatı məhsulları ilə təmin etdiyini, hətta ixracatı da artırdığını bildirib. Deputat təklif edib ki, kənd təsərrüfatı məhsullarının dövriyyə prosesinə də güzəştlər edilməlidir.

**Deputat Fəzail İbrahimli çıxışı zamanı öncə hökumətin ötənilki fəaliyyəti ilə bağlı müsbət fikirlər söyləyib. Deputat deyib ki, qos-qoca Avropa 1 milyonluq qaçqının əlində yesir qalıb. Amma Azərbaycan hökuməti 1 milyondan çox qaçqının öhdəsindən gəlib:** "Bu hökumət 90-cı illərin əvvəllərində tozun-torpağın içərisində olan Azərbaycanı bu gün dünyaya yeni bir libasda təqdim edir".

**Ardınca isə F.İbrahimli hökumət üzvlərini sərt tənqid edib:** "Sizin qapılarınız bizim üzümüzə açıq olmalıdır, çünki sizin yanınızda olan vətəndaşlar sonra bizim qəbulumuza gəlirlər. Deputatlar sonuncu şikayətçini qəbul edəndən sonra buranı tərk edir. Sizin də qapılarınız bizim üzümüzə açıq olmalıdır. Burada vəziyyət fərqlidir, qapılar var ki, taybatay açılır, qapılar da var üstündə yazılır ki, buraya quş gəlsə, qanad salar. Bu gün kim deyə bilər ki, Artur Rasi-Zadənin qəbuluna düşmək çətindir? Çünki Artur Rasi-Zadə Azərbaycanda məmur əxlaqı məktəbinin bariz nümunəsidir. Kim deyə bilər daxili işlər naziri ilə hansısa problemi həll etmək çətindir? Kimsə deyə bilər ki, iki nəfərin adını çəkdi, yarınır, ya hansısa məqsədi, bəlkə şirkəti var, ya gömrükdən mal keçirmək istəyir. Mənim bir diplomum var, zəhmətimlə qazanmışam, bir də mandatım, seçicilərim var. Ancaq dediklərimin əksi də var. Kim deyə bilər ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun qəbuluna düşmək, onunla hansısa problemləri həll etmək mümkündür? Kim desə, getsin "Ginnesin Rekordlar kitabı"na adını yazdırsın. Bəzən bizim durumumuz "Əsli və Kərəm"dəki Kərəmin durumuna bənzəyir. Kərəm bir göyəm kolunun yanında dayanır, deyir: "Başına döndüyüm göyəm kolları, Siz bilərsiniz Əsli keçən yolları..." Bu gün bir yol var: dövlət başçısının "Azərbaycanda toxunulmaz adam yoxdur", "məmur təvazökar olmalıdır", "məmur xalqın xidmətçisi olmalıdır" tapşırığına əməl olunmalıdır. Ortada yeyib, qıraqda gəzənlərin qarşısında dayanmaq lazımdır".

**Deputat Musa Qasımlı çıxışında nəqliyyat sistemində islahatların aparılmasını istəyib, xəstəxanalardakı xoşagəlməz halların qarşısının alınmasını səhiyyə nazirindən xahiş edib.**

**"İslahatlar kompleks xarakteri daşımayacaqsa, gözlədiyimizi ala bilməyəcəyik". Bu sözləri isə deputat Qüdrət Həsənquliyev deyib. O, məhkəmə-hüquq sistemindəki probemlərdən bəhs edib:** "İnsanlar əmin olmalıdır ki, onların ölkəyə qoyduğu investisiya qanunla qorunur. Amma bəzi hallarda məhkəmə qərarları qüvvəyə minir, onun möhürü qurumamış icraçılar hərəkətə keçir. Bir kasıbın, yetimin barəsində məhkəmə qətnamələri dərhal icraya yönəldildiyi halda, bir sıra hallarda məhkəmə qərarları aylarla icra olunmamış qalır".

**Konkret bir şirkətlə bağlı çıxarılan məhkəmə qərarının uzun müddətdir icra olunmadığını xatırladan deputat iclasda iştirak edən ədliyyə naziri Fikrət Məmmədova şəxsən xitab edib:** "Fikrət müəllim, xalqı hökumətdən, prezidentdən narazı salan ən ciddi sahələrdən də biri budur. Biz qanunun aliliyini təmin edə bilməyəcəyimiz halda, ölkəyə ciddi investisiya qoyuluşuna nail ola bilməyəcəyik. İnsanlar illərlə məhkəmə qapılarında qalır. Məhkəmə qərarlarının seçmə üsulu ilə icra olunmasına yol verməK olmaz. Bəzi vicdansız sahibkarlar bankların pulunu ödəmirlər. Bəzi vəkillər də onlara vicdansız üsulla dəstək olurlar. Deyirlər ki, gəlin ərizə yazın, şikayət edək və məhkəmələrdə uzatmaqla bu məsələnin həllini gecikdirək. Nəticədə banklar pulsuz qalır. Qanunvericilikdə məhkəmələrin bu işi ilə bağlı təkmilləşmə aparılmalıdır".

**Q.Həsənquliyev "Gündəm xəbər" qəzetinin baş redaktoru ilə bağlı məhkəmə prosesində də haqsızlıq olduğunu qeyd edib və baş redaktoru 4 il həbs gözlədiyini bildirib. Deputat deyib ki, məhkəmə qərarının mürəkkəbi qurumamış icraçılar onun başının üstünü kəsiblər.**

"Əhalisinin sayı Çinin bir əyalətində insanları sayı qədər olan Azərbaycanda 20-yə yaxın nazirlik, həmçinin digər dövlət qurumları-komitələr, səhmdar cəmiyyətləri var ki, bu da həddindən artıq çoxdur". Bu fikirləri isə **deputat Əli Məsimli** deyib. O bildirib ki, əgər vəziyyət bu cür davam edərsə, yenə də ətalətdən qaçmaq, islahatları davam etdirmək, uğurlu nəticə əldə etmək mümkün olmayacaq: "Hesab edirik ki, əhalinin sayı cəmi 9, 5 milyon olan Azərbaycan üçün bu rəqəm kifayət qədər böyük rəqəmdir və onun azaldılması lazımdır". Ə.Məsimli qeyd edib ki, kreditlərlə bağlı ağırlıq əhalinin üzərinə düşüb: "Ağırlığın bir faktorun üzərinə düşməsi düzgün deyil. Bu, sistem xarakterli bir məsələsdir. Biz kreditlərin ödənilməsi ilə bağlı təkliflər hazırlayırıq və bu təkliflər müvafiq qurumlara göndəriləcək".

**Deputat Fərəc Quliyev də bu mövzuda danışıb. Deyib ki, keçən il kredit götürənlərin hüquqlarının qorunması ilə bağlı heç bir addım atılmadı. O deyib ki, əslində bunun üçün imkanlar var idi:** "Manatın 48%-lik devalvasiyası Mərkəzi Bankın sərəncamında olan rəsmi valyutanın həcmi manat ekvivalentində artmasına səbəb olub. Həmin vəsaitdən kredit götürənlərin hüquqlarının qorunmasına sərf oluna bilərdi, amma sərf olunmadı. 21 fevral devalvasiyasından öncə dollarla kredit götürənlərin borc öhdəliyi iki dəfə artıb. Bu o deməkdir ki, bir il əvvəl 10 min dollar kredit götürən şəxs faizlərlə birlikdə banklara 20 min 800 manat ödəməlidir. Bu, manat ifadəsində borcun 2 dəfədən çox artması deməkdir".

**Deputat Qənirə Paşayeva Tovuz rayonu ilə bağlı keçən il nəzərdə tutulan, amma həlli gecikən məsələlərdən bəhs edib:** "Mən xahiş edirəm, əhalisi 20 mindən artıq olan kəndlərin su problemi həll olunsun. Cəmi 4-5 km-lik su borusu ilə çoxlu sayda əhalinin problemlərini həll etmək olar". **Xanım deputat baş nazirə və "Azərsu" rəhbərliyinə xitabən bu problemi həll etməyə çağırdı. Daha sonra Tovuz rayonunun qaz problemindən də danışıb:** "Hər dəfə "nədən qonşu kəndlər qazlaşdırılır və amma bizim kəndə iki ildir qaz verilmir" sualı ilə üzləşirəm və mən özüm də utanıram".

**Deputat dərmanların qiymətinin yüksək olmasından da danışıb:** "Qəbula bir xərçəng xəstəsi gəlmişdi, əlindəki reseptdə olan dərmanın qiyməti 180 manat idi. Ancaq o, cəmi 100 manat maaş alır".

**Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov hesabatı qənaətbəxş sayıb:** "Hesabat Azərbaycan hökumətinin fəaliyyətinin məhsuldarlığından xəbər verir".

**Ə.Amaşov ardınca mətbuatın problemlərindən bəhs edib:** "Məlumdur ki, devalvasiya mediaya da mənfi təsirini göstərib. Kağız bahalaşıb, çap xərcləri artıb. Bununla yanaşı, ölkəyə gətirilən qəzet kağızı və hazır çap məhsulları üzərinə əlavə dəyər vergisinin tətbiqinə də başlanılıb. Bu, onsuz da çətin olan vəziyyəti bir qədər də mürəkkəbləşdirib. Media ictimaiyyəti məsələdən narahatdır. Bu gün bir çox media orqanının fəaliyyətində durğunluq yaranıb. İşini dayandıran KİV-lər var. Əlavə dəyər vergisindən Azərbaycan büdcəsinə daxil olan vəsaitin miqdarı o qədər də böyük deyil. Bu rəqəm təxminən yarım milyon manata yaxındır. Ancaq bu vəsait maliyyə sıxıntısı keçirən KİV-lər üçün heç də az deyil. Onlar onsuz da məhdud büdcə ilə fəaliyyət göstərirlər. Təklif edirəm ki, medianın cəmiyyət həyatındakı rolu əsas götürülərək ölkəyə gətirilən qəzet kağızı və hazır çap məhsulları üzərindən əlavə dəyər vergisi götürülsün. Azərbaycan hökumətindən mövcud istiqamətdə əməli tədbirlərin görülməsini xahiş edirəm". Sonda deputat Saatlı rayonunda seçicilərlə görüşlər zamanı qaldırılan problemlərlə bağlı təkliflərini səsləndirib.

**Milli Məclisin vitse-spikeri Bahar Muradova deyib ki, Azərbaycan hökuməti 2015-ci il ərzində üzərinə düşən öhdəlikləri yerinə yetirib:** "Ötən il ayrılan 3.3 milyard manat vəsait ordunun maddi bazasının möhkəmləndirilməsinə və digər məsələlərə sərf olunub. Müdafiə sənayesi sahəsində uğurlarımız çoxdur. Xüsusi sərgilərdə iştirak, bağlanan müqavilələr, eləcə də yeni istehsal edilən silahları xüsusi vurğulamaq olar. Azərbaycanın artan iqtisadi gücü, ordu quruculuğunun möhkəmlənməsi, sosial siyasət, eləcə də beynəlxalq siyasət Azərbaycan hökumətinin yüksək səviyyədə işlədiyini söyləmək olar".

**Bundan sonra hökumətin 2015-ci il üzrə hesabatı səsə qoyularaq qəbul edilib.**

❑ Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 60 (6381) 16 mart 2016

# Azərbaycanın zəngin adamları var-dövlətlərini xilas etməyə çalışırlar

**Dünyada neftin qiymətinin kəskin ucuzlaşması Azərbaycanda qeyri-neft sektoruna investisiya yatırımına marağı hədsiz artırıb. Təsadüfi deyil ki, neftin qiymətinin düşməsi ilə kəndlərə qayıdış başlayıb. İndi əlində bir az maliyyə vəsaiti olanlar arasında "gedib kəndə iki-üç inək alıb yaşayaram" deyənlərin sayı artıb.**



# Varlılarımız milyonlarını torpağa basdırır - ilginc təfərrüat

Məlumatlı mənbələrdən verilən bilgiyə görə, zənginlər hektarlarla ərazi alıb pullarını kartof və soğan əkməyə yönəldiblər; bəs, onları torpağa bağlayan təkcə əllərində qalan pulun devalvasiyadan qorunmasıdırmı və ya böhran iqtisadiyyatıdırmı?

Yeni iqtisadi şərtlər-tikinti bumunun bitməsi, iri layihələrin icrasının təxirə salınması, əmlak bazarında durğunluq, bir-birinin ardınca bağlanan dükan-bazarlar Azərbaycanın zəngin iş adamlarını da alternativ qazanc mənbələri axtarmağa məcbur edib. Bankların etibardan düşməsi varlıların öz vəsaitlərini indi "torpağa basdırmağa" həvəsləndirib.

Hələ bir neçə il əvvəl oliqarxlarımız Rusiyada pullarını əvvəlki kimi daha tez gəlir gətirən tikinti sektoruna deyil, kənd təsərrüfatı ilə bağlı sahələrə yönəlməyə başlamışdılar. Çünki Rusiyada tikinti bumu Azərbaycandan əvvəl səngimişdi. Bu səbəbdən də zənginlərimiz Rusiyanın, xüsusilə Stavropol və Krasnodar vilayətlərində münbit torpaqları, hətta bütöv sovxozların ərazilərini, otlaq və əkin sahələrini almağa başlamışdılar. Rusiyanın kənd təsərrüfatına böyük miqdarda yatırım qoyulması hələ o zaman mediada xüsusi maraq doğurmuşdu. İndi postneft dövründə məlum olur ki, iqtidardakı oliqarxlar bu prosesi kortəbii olaraq yox, əsaslandırılmış və gələcəyə hesablanmış biznes layihəsi kimi həyata keçirirmişlər. Çünki BMT-nin son hesabatlarında da yaxın illərdə dünyanın ərzaq qıtlığından qurtulmayacağı və bununla əlaqədar kənd təsərrüfatı, eləcə də vacib ərzaq məhsullarının qiymətlərinin kəskin artması gözlənilir. Bu səbəbdən də indi kənd təsərrüfatı zərərlə işləyən sahədən yüksək gəlir gətirən sahəyə çevrilib.

İllər əvvəl Rusiyada olsa da, torpağa bu qədər "pul basdıran" azərbaycanlı zənginlər şimal ölkəsində iri kənd təsərrüflaratı yaradıblar, nəhəng heyvandarlıq komplekslərinə sahibləniblər. İndi həmin proses Azərbaycanda da baş verməkdədir.

Məlumatlı mənbələrdən verilən bilgiyə görə, zənginlər hektarlarla ərazi götürüb pullarını kartof və soğan əkməyə yönəldiblər. Xəbərdə deyilir ki, bəzi dövlət məmurları kənd təsərrüfatı sektoruna milyonlarla vəsait qoyur. Bəs varlılarımızı torpağa bağlayan təkcə əllərində qalan pulun devalvasiyadan qorunmasıdırmı və ya böhran iqtisadiyyatıdırmı?

Hökumətə yaxın mənbəmiz deyib ki, dövlət bu il kartof və soğan tədarükünü xaricdən dollara deyil, daxili bazardan almağa qərar verib. Xatırladaq ki, prezident İlham Əliyevin rəhbərliyi ilə regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına həsr olunan konfransda prezident əkinə yararlı torpaqların istifadəsiz qalmasının qarşısının alınacağını demişdi. İndi varlılar da əsasən kəndlilərdən həmin yararlı torpaqları alır, oraya maya qoyurlar. Həmin konfransda prezident kənd təsərrüfatının inkişafından danışarkən Azərbaycanın ətrafında böyük bazarlar olmasını deyib. İlham Əliyevin "O bazarlara bizim ənənəvi çıxışlarımız var. Azərbaycan məhsulları o bazarlarda tanınır və o bazarlarda Azərbaycan məhsulunun artımını gözləyirlər. Ona görə biz ənənəvi bazarlarda işləməliyik, daha fəal, daha da geniş əhatə dairəmiz olmalıdır və biz yeni bazarlara çıxmalıyıq, həm regional, həm beynəlxalq. Biz Avropa bazarlarına çıxmalıyıq" deməsi zənginləri daha da həvəsləndirib. Bütün pullu adamlar, oliqarxlar hazırda əllərindəki və daxıllarındakı artıq manatları hektarlarla torpaqlara soğan, kartof və pomidor ştili əkməyə yönəldiblər.

Xəbərlərə görə, zənginlər daha çox kartof əkilməsinə investisiya qoyurlar ki, bu da təsadüfi deyil. Belə ki, dövlət kənd təsərrüfatı mallarını dollara xaricdən deyil, daxildən manatla tədarük edəcək. Bu məlumatın zənginləri torpağa qayıtmasında hansı dərəcədə rolu olduğunu demək çətindir. Proses istənilən halda Azərbaycana, ölkənin vətəndaşına xeyir gətirəcək. Təbii ki, torpağa "pul basdıranlar" da onun "cücərməsini" və bəhrəsini görməlidirlər. Beləliklə, kəndli də qazanacaq, ölkə də, oliqarxlar da....

❑ **"Yeni Müsavat"**

# Keçmiş nazir və YAP-çı deputat Samir Şərifov haqda nə dedi?



**Fikrət Yusifov:** "Burada məqsəd ölkəmizi nüfuzdan salmaqdır"



**Aydın Mirzəzadə:** "Əgər bundan sonra da Azərbaycan iqtidarında olan hər hansı şəxs haqqında..."

**Bir neçə gündür ki, bəzi yerli mətbuat orqanlarında Ukraynanın "Qordon" agentliyinə istinadla ABŞ-ın maliyyə analitiki kimi təqdim olunan Yuri Şvetsin Azərbaycanın maliyyə naziri Samir Şərifovu bir üç ölkənin agenti olmaqda ittiham etməsi barədə məlumat müzakirə olunur.**

Yuri Şvets Samir Şərifovun Rusiya, Türkiyə və ABŞ-ın xüsusi xidmət orqanları ilə eyni vaxtda əməkdaşlıq əlaqələrinin olduğunu iddia edib.

Bu fikirlər Azərbaycanda mətbuatında sensasiya ilə qarşılanıb. Lakin maliyyə nazirini ittiham edən Şvetsin hansı dəlil və sübutlarla bu iddiaları qaldırdığı məlum deyil. İqtidaryönlü deputatlar isə bunun Azərbaycan hökumətinə qarşı bir təxribat olduğu qənaətindədirlər.

**YAP Siyasi Şurasının üzvü, deputat Aydın Mirzəzadə** hesab edir ki, bu həm Samir Şərifova, həm də Azərbaycana qarşı təxribat planının bir hissəsidir: "Əgər bundan sonra da Azərbaycan iqtidarında olan hər hansı şəxs haqqında və ya Azərbaycanın iştirak etdiyi hər hansı layihə ilə bağlı "sensasiyalı" bir informasiya yayılsa, mən artıq buna da təəccüb etmərəm. Söhbət hökumətin aparıcı üzvlərindən biri haqqında, uzun müddət maliyyə sahəsinə rəhbərlik edən, müsbət mənada özünü göstərən bir nazir haqqında gedir. Sual olunur ki, niyə uzun müddət Rusiyanın təhlükəsizlik orqanlarında işləmiş və Putin əleyhinə müsahibə verən şəxs birdən-birə istiqaməti dəyişərək Azərbaycanın naziri haqqında fikir bildirməyə çalışır? Kim onu məcbur edir ki, məhz Azərbaycanın nazirinin adını çəksin. Samir müəllimin çox zəngin təcrübəsi var, o, müxtəlif sahələrdə işləyib. Hər bir sahədə özünü təsdiq edib. Ulu öndər Heydər Əliyevin dövründə məsul vəzifələrdə çalışıb. Hazırkı prezident İlham Əliyev artıq neçənci dəfədir ki, onu maliyyə naziri təyin edir. İndiki iqtisadi çətinliklərdə maliyyə sisteminin təkmilləşməsində böyük rol oynayır".

**A.Mirzəzadənin fikrincə, indiki iqtisadi şəraitdə, neftin qiymətinin kəskin düşməsi halında və dünyada gedən maliyyə böhranında Azərbaycanın iqtisadi sabitliyini saxlaması kimlərinsə siyasi -iqtisadi maraqlarına cavab vermir:** "Bu baxımdan onlar belə fikirlər yayırlar. Ola bilər ki, onlar üçün söhbətin maliyyə nazirindən və ya digər ölkənin digər iqtisadi strukturunun rəhbərindən getməsinin əhəmiyyəti yoxdur. Onlar başqasını da ittiham edə bilərdilər. Bu, Azərbaycana qarşı qurulmuş xüsusi bir oyundur və bununla da Azərbaycan daxilində qarşıdurma yaratmağa, hökumət üzvü haqqında mənfi fikir formalaşdırmağa çalışırlar. Ümumilikdə isə söhbət Azərbaycan iqtidarını hörmətdən salmaq planından gedir.

Azərbaycan cəmiyyəti kifayət qədər belə ssenarilər görmüş cəmiyyətdir. Ona görə də mən mətbuatı izləyirəm və görürəm ki, bu yalan ayaq tutub yerimədi, onlar öz mənfur məqsədlərinə çatmadılar".

**Keçmiş maliyyə naziri Fikrət Yusifov isə bildirdi ki, bu, sadəcə, Samir Şərifovun nüfuzuna xələl gətirmək, onun reputasiyasını korlamaq üçün deyilən fikirdir:** "Mən bu fikirlərdə hər hansı həqiqət görmürəm. Bu, təkcə Samir Şərifova yox, bütövlükdə Azərbaycan hakimiyyətinə ləkə sala, zərbə vura biləcək xarici qüvvələrin atdığı addımlardan biridir. Burada məqsəd ölkəmizi nüfuzdan salmaqdır. Samir Şərifov hökumətin üzvüdür, Azərbaycanın ən aparıcı nazirlərindən biridir. O, hökumətdə sıradan bir şəxs deyil. Ona qarşı aparılan bu kampaniya bütövlükdə Azərbaycan hakimiyyətinə yönəlib. Müəllifin kim olduğu və harada oturması bizə çox şey deyir".

❑ **Nərgiz LİFTİYEVA**

# Abutalıbova ciddi zərbə - parkomatlar əlindən alınır

**Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) səlahiyyətləri azaldılır.**



Aznews.az-ın xəbərinə görə, bu barədə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, deputat Hadı Rəcəbli məlumat verib. Onun sözlərinə görə, yaxın vaxtlarda Bakı şəhəri üzrə parkinqlərə və duracaq yerlərinin təşkili üçün parkomatlara nəzarət BŞİH-dən alınacaq: "Bu funksiyaya nəzarət yeni yaradılan Bakı Nəqliyyat Agentliyinə həvalə olunacaq. Bundan əlavə, elektron idarəetmə, paytaxtda avtobus marşrutlarını müəyyən etmək, duracaqlar yaratmaq, taksi fəaliyyəti ilə bağlı pərakəndəliyi aradan qaldırmaq onlara tapşırılacaq və parkomat nəzarətçilərini də o qurum idarə edəcək. Hazırda həmin qurumun əsasnaməsi formalaşdırılır. Əsasnaməyə görə, Bakıda olan sərnişin nəqliyyatının bütövlükdə idarəolunması o quruma verilir".

Yada salaq ki, prezident İlham Əliyevin 2012-ci ildə Nazirlər Kabinetinin iclasında Bakıda yol kənarında avtomobillərin saxlanılması və böyük parkinqlər tikilənədək bu məsələnin tənzimlənməsi barədə göstərişi Bakı meri üçün yeni qazanc yerinə çevrilib. Prezidentin bu iradından sonra Abutalıbov özünə yeni biznes yaratmağa başladı. Belə ki, müəyyən olunmuş ərazilərdə parkomatlar quraşdırıldı və sürücülərə burada maşın saxlamağa icazə verildi. Ardınca şəhərin küçə və prospektlərində, parkların və metro çıxışlarının ətrafında və digər ərazilərdə fiziki şəxslər, həmçinin heç bir hüquqi əsası olmadan dövlət strukturları, idarə, təşkilat, müəssisə və ticarət obyektlərinin sahibləri tərəfindən qanunsuz yaradılmış duracaqlar ləğv edildi. Əvəzində nəqliyyatın hərəkətinə maneçilik törətməyən ərazilər hesab edilən yerlərdə yeni duracaqların yaradılması işinə başlanıldı. Belə duracaqlarda ödənişlərin elektron formada həyata keçirilməsi üçün ilkin olaraq Fransadan müasir tipli 1000 aparat-parkomat gətirildi və 5 ay ərzində onların 500-ü müəyyən edilmiş müvəqqəti duracaqlarda quraşdırılıb sürücülərin ixtiyarına verildi. İndiyə qədər sürücülərin 20-30 qəpiyə istifadə etdikləri xidmət illərdir ki, 30 dəqiqə üçün 50 qəpik, hər bir saat isə 1 manatdır. Yığılan pulların isə kimin cibinə getdiyi sirr deyil...

Amma tətbiq edilən yeni qayda da tıxac problemini aradan qaldırmağa yetmədi. Abutalıbovun Fransadan milyonlarla vəsait hesabına Bakıya gətirtdiyi parkomatlar gözlənilən ümidləri doğrulda bilmədi. Parkomatların xaricdən alınmasına, quraşdırılmasına milyonlar xərcləndi, amma ortada bir nəticə yoxdur. Qeyd edək ki, parkomatların Abutalıbovun nəzarətinə keçməsi hələ o zaman Nəqliyyat Nazirliyinin ciddi narazılığına səbəb olmuşdu.

Bakı Nəqliyyat Agentliyi isə ötən ilin dekabr ayının 21-də yaradılıb. Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyinə tapşırılıb ki, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsinə aid normativ hüquqi aktların müddəalarına riayət edilməsinə nəzarətin həyata keçirilməsi, habelə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması üçün tədbirlər görsün.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 60 (6381) 16 mart 2016



# Əli Kərimlinin müşavirinə 3 il həbs verildi

**Martın 15-də Nərimanov Rayon Məhkəməsində AXCP sədrinin müşaviri Məmməd İbrahimin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Lent.az-ın məlumatına görə, hakim Turqay Hüseynovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən M. İbrahim 3 il müddətinə azadlıqdan məhrum edilib.**

Xatırladaq ki, dünən keçirilən prosesdə dövlət ittihamçısı çıxış edərək təqsirləndirilən şəxsin 4 il müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi.

Qeyd edək ki, M. İbrahim bir müddət əvvəl AXCP-dən ayrılmış Mikayıl Quliyevin şikayət ərizəsi əsasında başlanmış cinayət işi üzrə sentyabrın 30-da həbs olunub. O, Cinayət Məcəlləsinin 221.2.2-ci (xuliqanlıq) maddəsinə əsasən ittiham edilir.



# Maşallah Əhmədovun dustaqlıq müddəti uzadıldı

**Binəqədi Rayon Məhkəməsində dələduzluqda təqsirləndirilən tanınmış futbolçu Maşallah Əhmədov barəsində seçilmiş ev dustaqlığının müddətinin uzadılması ilə bağlı istintaq orqanının verdiyi təqdimata baxılıb.**

Report.az xəbər verir ki, M.Əhmədov barəsində seçilmiş ev dustaqlığı bir ay müddətinə artırılıb.

M.Əhmədovun vəkili Samir Abdullayev xəbəri təsdiqləyib.

Qeyd edək ki, M.Əhmədov 2015-ci ilin dekabr ayının 14-də Binəqədi Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb. İlkin məlumata görə, bizneslə məşğul olan "Neftçi"nin keçmiş futbolçusu Bakıda bir neçə nəfərə 150 min manatdan artıq dəyərdə xaricdən daş plitə gətirəcəyini vəd edib. Lakin M.Əhmədov sözünə əməl etməyib, həmin şəxslərin pulunu da qaytarmayıb.

Dekabrın 16-da Binəqədi Rayon Məhkəməsində M.Əhmədov barəsində üç ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Qərardan narazı qalan veteran futbolçu apelyasiya şikayəti ilə Bakı Apelyasiya Məhkəməsinə müraciət edib. Lakin apelyasiya şikayəti təmin edilməyib.

Dekabrın 30-da isə Binəqədi Rayon Məhkəməsi M.Əhmədov barəsində seçilmiş həbs-qətimkan tədbirini ləğv edib. Tanınmış futbolçu ev dustaqlığına buraxılıb.

Xatırladaq ki, Azərbaycan futbolunun ən güclü hücumçularından olan M.Əhmədov 1959-cu ildə Gəncədə anadan olub. O, 1977-ci ildən "Neftçi" klubunda oynayıb. M.Əhmədov 1995-ci ildə əsas milli komandada məşqçi, U-21-də isə baş məşqçi funksiyasını yerinə yetirib. O, 2008-ci ilin dekabrından etibarən İsgəndər Cavadovun rəhbərlik etdiyi Azərbaycan Regional Futbol Federasiyaları Assosiasiyasının vitse-prezidentidir.



# Təhlükəsizlik eksperti Eldar Mahmudovun agent olmasından danışdı

## İlham İsmayıl: "Eldar Mahmudovun "KQB"nin varisi olan Federal Təhlükəsizlik Xidməti ilə..."

**Keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudov "KQB"nin agenti olub. Bu iddia ilə jurnalist Eynulla Fətullayev müəllif yazısında çıxış edib. Eynulla Fətullayev qeyd edir ki, Eldar Mahmudov 1982-ci ildə "KQB" ilə könüllü əməkdaşlığa başlayıb.**

**Sitat:** "O, "Dağsıçanı" agentura ləqəbi ilə fəaliyyət göstərib. Yəqin ki, bu işində "Dağsıçanı" çox cidd-cəhdlə çalışıb, çünki xüsusi xidmət orqanlarına işləməyə başlayandan dərhal sonra o, yəni Eldar Mahmudov xidməti pillələrlə sürətlə yuxarı qalxmağa başlayır - onu Azərbaycan SSR DİN-in 5-ci şöbəsinin (nəzarət xidməti!) baş müfəttişi təyin edirlər. Daha bir müddət sonra SSRI "KQB"dəki kuratorlarının dəstəyi ilə Eldar Mahmudov Bakının Kirov rayonunun milis şöbəsində operativ işə keçirilir. Rusiya xüsusi xidmət orqanlarının arxivləri cuğul Mahmudovun raportları və "donos"ları ilə doludur. Mümkün hal kimi qiymətləndirirəm ki, SSRI dağıldıqdan sonra SSRI "KQB"nin xələfinin - Rusiya xüsusi xidmət orqanının nəzarətinə keçmiş Eldar Mahmudov xidməti pilləkəndə daha bir yüksəlişə nail olur - SSRI DİN-in Mütəşəkkil Cinayətkarlığa Qarşı Regionlararası İdarəsində vəzifə sahibinə çevrilir. Bu faktları heç kim, o cümlədən Eldar Mahmudov da inkar edə bilməz".

Bu iddiaların nə dərəcədə doğru olub-olmamasını demək çətindir. Ən azı Mahmudov agent olubsa, məntiqlə onun agentura ləqəbi, "KQB" ilə əməkdaşlığı haqda məlumatlar da məxfi olmalı idi. Bu məlumatların ictimailəşməsi üçün Azərbaycan müstəqillik qazanandan sonra xeyli çabalar göstərilib və son nəticədə müstəqil Azərbaycanda qalan "KQB"nin Azərbaycan SSR-dəki agentura şəbəkəsi haqda da arxivlərin açılmaması qərarlaşdırılıb. Pribaltika dövlətləri müstəqillik qazanandan sonra milli hakimiyyətlər ilk növbədə "KQB" arxivlərini açıb agentlərin kimliklərini ortaya qoyublar. Bundan həmin dövlətlərin qazandığı və ya uduzduğunu söyləmək üçün geniş müzakirələrlə ehtiyac var.

**Bu gün müstəqil dövlətlərdə "KQB" agenti olmaq niyə yolverilməz hesab edilir?**

**Təhlükəsizlik xidmətinin sabiq zabiti İlham İsmayıl hesab edir ki, arxivlərin açılması məsələsi dövləti maraqlar baxımından zərərlidir. O, "KQB" agentləri haqda məlumatların dövlət rəhbərliyinə daxil olan şəxslərin bilməsinin vacib olduğunu, həmin şəxslərin daim nəzarət altında saxlanmalarının zəruriliyini qeyd edir:** "Sovet dövründə müstəqillik illərindən fərqli olaraq "KQB" agentləri vəzifələrə təyin olunurdular. Onlar yüksələn xətt üzrə inkişaf edirdilər. Həmin agentlər "KQB"yə lazım olan məsələləri yerlərdə həll edirdilər. Vaxtilə Bakıda və Moskvada təhsil alan tələbələr, hətta xarici tələbələr olub ki, "KQB"nin agentura şəbəkəsinə cəlb olunublar, sonradan ölkələrinə qayıdıb prezident kürsüsünə qədər qalxa biliblər. Yəni sovet dövründə "KQB" agenti vəzifəyə qoyula bilməz" məsələsi yox idi. Əksinə, agentlər vəzifələrə rahat şəkildə təyinat alıb irəliləyirdilər".



İlham İsmayıl

**İ.İsmayıl deyir ki, E.Mahmudovun barəsində yazılan iddialarda doğruluğunu şübhə altına alan məqamlar var:** "Eldar Mahmudovun "KQB" agenti olması iddiasına şübhə etmək üçün çox ciddi əsaslar var. Yazılanlar dəqiqdirsə, bu adamın o dövrdə "KQB" ilə əməkdaşlığa cəlb olunması yalandır. Yazırlar ki, Eldar Mahmudov 1982-ci ildə "KQB"yə agent kimi cəlb olunub. Əvvəla, milis işçilərinin "KQB"yə agent kimi cəlb olunması 1984-cü ildən başlayıb. Yuriy Andropov SSRİ-nin rəhbəri olandan sonra, 1983-cü ildə "KQB"də milisə nəzarət üçün xüsusi şöbə - 3-cü şöbəni yaratmışdı. 1984-cü ildən başlayaraq, Daxili İşlər Nazirliyi əməkdaşlarını agent kimi əməkdaşlığa cəlb etməyə başladılar. İddiada göstərildiyi kimi, 1982-ci ildə belə bir hal yox idi. Eldar Mahmudovun "KQB"yə sovetlər dönəmində cəlb olunmağına inanmıram. Mümkündür ki, onu müstəqillik dövründə cəlb ediblər. Ümumiyyətlə isə Eldar Mahmudovu milli təhlükəsizlik naziri "OBXSS" işçisi, polis olduğuna görə təyin etmək olmazdı. Bu şəxsin təyinatından əvvəl agent olub-olmamasını Milli Təhlükəsizlik Nazirliyi vasitəsilə yoxlaya bilərdilər. Qaldı ki Eldar Mahmudovun "KQB"nin varisi olan Federal Təhlükəsizlik Xidməti ilə əməkdaşlığına, bunu əlbəttə ki, həmin qurum açıqlamazdı. Çünki maraqlı olardılar ki, milli təhlükəsizlik naziri postuna uyğun olmayan adam bu posta təyinat alsın. Daim onlar işləsin, onların maraqlarından çıxış etsin".

**İ.İsmayıl agentlərin ifşası üçün arxivlərin açılmasını niyə ziyanlı hesab etməsini belə izah edir:** "Çarın agentura şəbəkəsini Lenin belə açmadı. Bir-birilərinə əks rejimlər olmasına baxmayaraq, buna getmədilər, əksinə, həmin şəbəkədən istifadə etdilər. Bu günə qədər İngiltərədən, İsraildən, Fransadan tutmuş ABŞ-a qədər heç kəs agentura şəbəkəsini açmayıb. Heç kəs! Çünki bu birinci növbədə dövlətə lazımdır, kütləyə deyil... Lap arxivlər açıldı, bilindi ki, filan rayonun filan kəndində yaşayan 70 yaşlı filankəs agent olub. Bu informasiya kimə lazım olacaq? Bundan onun uşaqları, yaxınları, nəvə-nəticələri zərər görəcək. Bundan böyük zərəri isə dövlət çəkəcək. Bundan sonra agenturada işləməyə heç kim yaxın gəlməyəcək. Arxivlərin qapalı qalması ilk növbədə dövlətə lazımdır. Dövlətin rəhbər şəxslərinin - prezident və ondan sonrakı 2-3 vəzifə daşıyıcısının kimlərin agent olmalarını bilməsi həmin agentlərin nəzarətə götürülmələrinə kifayət edir. Bir çox hallarda bunu dövlət başçısının bilməsinə də ehtiyac yoxdur. Sadəcə, dövlət rəhbərinə məlumat verilə bilər ki, bu tip şəxsləri vəzifədə irəli çəkməyə ehtiyac yoxdur. Həmin şəxslər daim nəzarətdə saxlanmalıdır. Arxivlər açılsa, bunun dövlətə digər böyük zərəri var. Dövlət Təhlükəsizlik Xidmətinin əsas silahlarından biri agentura şəbəkəsindən əldə olunan informasiyalardır. Arxivlər açılsa, heç kim agent olmaq istəməyəcək və işə yaxın getməyəcək. Deyəcəklər ki, "kim qarantiya verir ki, 20 il sonra mənim agent olduğumu açıqlamayacaqsız və mən ölkədə biabır olmayacağam". Ona görə də agentlərin kimliyini açıqlamaq, agentura şəbəkəsini açmaq yox, onların kimliklərini bilmək və nəzarətdə saxlamaq lazımdır. Belə şəxsləri nəzarətdə saxlamaqla fəaliyyətlərinə korrektələr etmək olar. Agentlərin kimliyini açıqlayıb ölkədə qan davaları ocaqlarını yaratmaqda başqa nəyəsə nail olmaq mümkün deyil".

**İ.İsmayıl bugünkü Azərbaycan dövləti rəhbərliyinin "KQB" agentlərinin kimliyi ilə bağlı məlumatlara həvəs göstərəcəkləri təqdirdə tanış olmaq imkanına malik olduqlarını da açıqladı:** ""KQB"nin Azərbaycan SSR-yə aid arxivlərinin hamısı bizdə var. Dövlət rəhbərliyi istədiyi vaxt həmin arxivdəki məlumatlarla tanış ola bilər".

**İ.İsmayıl agentlərə informasiya müqabilində pul verilməsi məsələsinə də toxundu. Bildirdi ki, yerli agentlərə pul verilməsi praktikası elə də geniş deyil:** "Pulla cəlb etmə əsasən xaricilərə şamil olunurdu. Yerli agentlərə isə xüsusi informasiyalara görə mükafat şəklində pul ödənilib. Sovet vətəndaşlarından ibarət olan agentura şəbəkəsinin 90 faizi pulla işləməyib".

**İ.İsmayıl deyir ki, agentura şəbəkəsi olmadan xüsusi xidmət orqanlarının fəaliyyəti çox zəifləyər:** "Agentlər yoxdursa, xüsusi xidmət orqanı informasiya əldə etməkdə böyük çətinliklərlə üz-üzə qalar. Bunun üçün müxtəlif qurğulardan istifadə edə bilər. Amma heç bir qurğu insanın verdiyi informasiyanı verə bilməz. Dünya xüsusi xidmət orqanları peşəkarlarının qənaəti budur ki, insanın verdiyi informasiyanı istər kosmosdan xüsusi izləmə qurğuları vasitələri ilə olsun, istər yerüstü vasitələrlə olsun, əldə etmək şansları çox azdır".

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 60 (6381) 16 mart 2016

# Salyanın sabiq başçısının həbsinə hazırlıq gedir

## Tahir Kərimovun fəaliyyəti təftiş edilir; Hesablama Palatası rayonda kompleks yoxlamalara başlayıb; hüquq-mühafizə orqanları yoxlamanın nəticələrini səbirsizliklə gözləyir...

**Prezident İlham Əliyev ötən həftə 3 rayonun icra hakimiyyəti başçısını işdən azad etdi. Cəbrayıl, Laçın və Salyan rayonlarının İH başçıları tutduqları vəzifədən çıxarıldı. Bu üç başçı haqda indiyədək mətbuatda çox yazılıb. Onların rayonda törətdikləri özbaşınalıqlar, yerli əhaliyə zülm etmələri, rüşvətxorluq, korrupsiya və s. əməlləri medianın illərdir ki, gündəmindən düşmür.**

İşdən çıxarılan başçılar arasında adı ən çox qalmaqallarda hallanan Tahir Kərimov idi. O, 2010-cu ildən ötən həftəyə qədər Salyan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini icra edib. İnternetdə axtarış sistemində Tahir Kərimov yazıldıqda, onlarla məqaləyə rast gəlinir. Həmin məqalələrdə T.Kərimovun ağlasığmaz əməllərindən bəhs edilir. Məsələn, sabiq başçının adı qanunsuz torpaq alverindən, sahibkarlara divan tutmağa, rüşvətxorluqdan, reketçiliyə, korrupsiyadan adamöldürməyə kimi ən çirkli işlərdə, cinayətlərdə hallanıb. T.Kərimovun necə başçı olduğunu isbatlayan bariz sübut Salyan əhalisinin onun vəzifədən getməsini toy-bayram etməsidir. İllərdir insanların canını boğazına yığmış bir rayon rəhbərinin işdən azad edilməsini camaat az qala atəşfəşanlıqla qeyd edib...

Sən demə, T.Kərimovdan təkcə salyanlılar narazı deyilmiş. O, dövlət rəhbərliyinin də antipatiyasını qazanıbmış. “Yeni Müsavat”a rayondakı mənbələrdən daxil olan məlumata görə, mart ayının 15-dən etibarən Hesablama Palatasının komissiyası Salyanda kompleks yoxlamalara başlayıb. Deyilənə görə, buna səbəb Tahir Kərimovun fəaliyyətinin araşdırılmasıdır. Onun çoxlu yeyintiyə, korrupsiyaya yol verdiyi bildirilir.

Məlumatda o da deyilir ki, Hesablama Palatasının yoxlamasının nəticələri hüquq-mühafizə orqanlarına göndəriləcək. Bundan sonra isə sabiq başçıya Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə cinayət işi açılacağı deyilir.

Məlumatlı mənbənin verdiyi xəbərə görə, artıq T.Kərimovun yaxın ətrafı da “vurulmağa” başlayıb. Onun oğlunun və yeznəsinin işdən çıxarıldığına dair məlumatlar var. Digər qohumlarının da yaxın günlərdə işdən qovulacağı istisna olunmur.

Xatırladaq ki, T.Kərimovun adı bir neçə il öncə bir qətl işində hallanmağa başlamışdı. 2011-ci il, iyulun 11-də “Azər-Ross” MTK-nın rəhbəri Əflatun Piriyev öz ofisində odlu silahla öldürüldü. Bu qətlin sifarişçisi Hümbət Məmmədov və digərləri idi. H.Məmmədov T.Kərimovla quda və biznes ortağıdılar. Deyilənə görə, Tahir Kərimov həmin vaxt adının bu cinayət işinə qarışmaması üçün xeyli xərc çəkib. Mənbə bildirir ki, sabiq başçı keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudova külli miqdarda rüşvət verməklə bu işdən canını son anda qurtara bilib.



Tahir Kərimov

Salyandakı mənbəmiz bildirir ki, T.Kərimov vəzifədən çıxarıldığı gün icra hakimiyyətinin binasını arxa qapıdan gizli şəkildə tərk edib. Onu bu addımı atmağa vadar edən səbəb rayon sakinlərinin onu hörmətsiz formada Bakıya yola salmağa hazırlaşması olub. O da bu informasiyadan sonra binadan və Salyandan gizli şəkildə çıxış yapıb.

Mətbuat indiyədək Tahir Kərimovun qanunsuz sahibkarlıqla məşğul olması barədə də yazıb. Onun Salyanda onlarla ticarət və iaşə obyektlərinin, Qusarda “Star Qusar” əyləncə mərkəzinin, Bakıda restoranlarının, sayı-hesabı bilinməyən mənzillərinin, İstanbulda, Ruminiyada, Polşada (Karlovı Varı) xeyli sayda daşınmaz əmlakının olduğu deyilir. Artıq bu faktlar üzrə də araşdırmaların başladıldığı, T.Kərimovun mal varlığının siyahısının tutulduğu haqda məlumatlar almışıq.

Ən sonda bildirək ki, Salyanın sabiq icra başçısının orta məktəb şagirdlərinin əllərində tutduqları gül çələnginin altından keçdiyini əks etdirən foto “yuxarılarda” ciddi qıcıq yaradıb. Xatırladaq ki, o şəkil sosial şəbəkələrdə və mediada günlərlə müzakirə edildi, bu davranışına görə T.Kərimov ciddi şəkildə qınandı. Amma T.Kərimovun “vurulması”nın əsas səbəbi bu foto deyil, təbii ki. Mənbəmizin iddiasına görə, ortada daha dərin və ciddi səbəblər var. Bu səbəblərdən biri kimi Tahir Kərimovun Salyanı öz ədalətsiz və tamahkar idarəetməsi ilə qan çanağına döndərməsi göstərilir. Hakimiyyətə bəlli olub ki, Salyanda hər an məhz Tahir Kərimovun üzündən xalq etirazları başlaya bilər. Bundan sonra onun işdən azad edilməsi haqda qərar qəbul edilib.

**Mövzunu davam etdirəcəyik.**

❑ **İnformasiya şöbəsi**

# “OMON” hadisələri baş verməyə bilərdi, əgər...



## Rövşən Cavadovun öldürülməsindən 21 il ötür; “OMON” hadisələrinin izləri isə qalmaqda davam edir...

**Sabah Rövşən Cavadovun başçılığı ilə yaradılmış Xüsusi Təyinatlı Polis Dəstəsinə (“OMON”) qarşı həyata keçirilən əməliyyatdan 21 il ötür. OMON-la Daxili Qoşunlar arasında davam edən silahlı mübarizə sonda Rövşən Cavadovun öldürülməsi və XTPD-nin tamamən ləğvi ilə nəticələndi.**

Qeyd edək ki, proseslər 1995-ci ilin 13 martında Qazaxda başladı, 16-dan 17-nə keçən gecə Bakının 8-ci kilometr qəsəbəsindəki döyüşlərlə başa çatdı. Qarşıdurma nəticəsində rəsmi statistikaya görə, 22 hərbçi, 7 mülki şəxs, 1 polis əməkdaşı həlak olub, 8 XTPD əməkdaşı öldürülüb, 105 nəfər yaralanıb. XTPD rəhbəri Rövşən Cavadov isə aldığı güllə yarasından DİN-in hospitalında vəfat edib.

Həmin vaxtdan uzun müddət keçməsinə baxmayaraq, “OMON” hadisələrinin izləri hələ də qalmaqdadır. Hazırda həbsxanalarda üç ömürlük “OMON”-çu məhbus var. Onlar XTPD-nin Qazax bölməsinin rəhbəri olmuş Elçin Əmiraslanov, Səfa Poladov və Arif Kazımovdur. Bu şəxslərin özləri, yaxınları və hüquq müdafiə təşkilatları dəfələrlə aidiyyəti orqanlara müraciət etsələr də, onlar hələ də həbsdə qalmaqda davam edirlər.

“OMON” hadisələri ilə bağlı ictimaiyyət arasındakı mövqelər də birmənalı deyil. Cavadov və tərəfdarlarının suçlu olduğunu deyənlər də var, həmin hadisələrin qarşısını itkisiz şəkildə almağın mümkün olduğunu düşünüb, hökuməti suçlayanlar da.

**Mart hadisələri vaxtı dövlət müşaviri postunda çalışan politoloq Qabil Hüseynli həmin dövrdə ölkədə qeyri-qanuni dəstələrin meydan suladığını bildirdi:** ““OMON”-a dəfələrlə təkid edilmişdi ki, DİN-in daxilində qeydiyyatdan keçsin və bu qurumun tabeçiliyinə verilsin. Amma “OMON”-çu dəstələr bütün cəhdlərə baxmayaraq, hakimiyyətə müqavimət göstərmək qərarına gəldilər. Açıq şəkildə qəzetlərə verdikləri müsahibələrdə Dövlət Şurası yaradacaqlarını, orada Elçibəy və Mütəllibovun iştirak edəcəklərini bəyan edirdilər. Üstəlik, bəzi



vəzifəli şəxslərin istefasını tələb edirdilər. Konkret dövlətin himayəsi ilə yaradılmış silahlı dəstə sonradan dövlətin əleyhinə olan qiyamçı dəstəyə çevrildi. Dövlət başçısının çağırışlarına məhəl qoymayaraq, dövlətə tabe olmaqdan boyun qaçırdılar. Dəfələrlə cəhdlər edildi, arada vasitəçilər “OMON”-un qərargahına getdilər. Rəhmətlik şairimiz Bəxtiyar Vahabzadə, Rövşənin atası Bəxtiyar Cavadov mərhum prezident Heydər Əliyevin irəli sürdüyü şərtlər daxilində “OMON”-un silahı yerə qoymasını, qərargahdan çıxmalarını onların nəzərinə çatdırdılar. Heydər Əliyev onların hamısına nazirlik sistemində qeydiyyatdan keçdikdən sonra vəzifələrə götürüləcəkləri barədə vəd verdi. Amma təəssüf ki, “OMON”-çular hökumətə meydan oxumağa, müəyyən şəxslərin istefaya getməsində qərarlı görünürdülər. Belə olan halda istənilən hökumət bu addımı atardı. Həmin ana qədər Surət Hüseynovun da silahlı dəstəsi zərərsizləşdirilmiş, ölkədə quruculuq prosesi gedirdi. Ona görə məsələnin hərbi yolla həll olunması variantı gündəmə gəldi. Üç gün ərzində “OMON”-a və onun rəhbərinə televiziya, mətbuat vasitəsilə tabe olmaqla bağlı çağırışlar edildi. Bu çağırışlara məhəl qoyulmayandan sonra silahlı dəstəni zərərsizləşdirməklə bağlı hərəkətə keçildi. Dövlət öz vəzifəsini yerini yetirdi və prosesləri nəzarəti altına aldı. Bu zaman hər iki tərəfdən həlak olanlar oldu. Bütün bunlara baxmayaraq, mart hadisələri ölkədəki qeyri-qanuni silahlı dəstələrin aradan qaldırılmasına və strukturların tam şəkildə işləməsinə meydan açdı. Bundan sonra ölkəmizdə silahlı birləşmələr tam şəkildə aradan qaldırıldı".

**Sabiq dövlət müşaviri mart hadisələrinin baş verməməli olduğu ehtimallarına toxundu:** “Həmin hadisələr o zaman baş verməyə bilərdi ki, "OMON" hakimiyyətə tabe olardı, çağırışlara məhəl qoyub silahı təhvil verərdi. Amma bunların heç biri olmadı. Nəticədə toqquşma yaşandı və proseslərin başa çatması ilə nəticələndi. Qarabağ münaqişəsinin gərgin zamanlarında dövlətçiliyimizə qarşı qiyam qaldırmaq yolverilməz idi. Dövlət özünü qorumaq məcburiyyətindədir. Bu onun konstitusion hüququdur".

**“Turan” informasiya agentliyinin rəhbəri Mehman Əliyev hesab edir ki, “OMON” hadisələri baş verməyə də bilərdi:** “Bu proseslər 1993-cü ildən özünü açıq şəkildə büruzə verməyə başladı. AXC-nin hakimiyyətdən getməsi və Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Rövşən Cavadov, Surət Hüseynov kimi məsələlər ortaya çıxdı. Rövşən Cavadov ideal şəxs idi. O, qarşıdurmalara getmək istəməmişdi və getmədi də. Amma bu, müvəqqəti xarakter daşıyırdı. Hər iki tərəf üçün bu, belə idi. Rövşən Cavadov o zaman geri çəkilmişdi, amma yarıyoldan. Tam geri çəkilsəydi, iddialarından vaz keçsəydi, əlbəttə, bu hadisələr baş verməzdi. Amma o, bunu etmədi. Demək olar ki, sona qədər mübarizəsini apardı. Məntiqi nəticəsi kimi, 17 mart hadisələri qaçılmaz olmuşdu. İş orasındadır ki, həmin dövrdə Azərbaycanda siyasi-hərbi müxalifət mövcud idi, o cümlədən Rövşən Cavadovun dəstəsi. Bu yolverilməz idi. Heç bir dövlət, ölkə başçısı bununla barışa bilməzdi. 1993-cü ildən başlayan proseslər bu sonucla nəticələndi. Bundan sonra Azərbaycanda hərbi müxalifət anlayışı tamam tarixdən silindi”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 60 (6381) 16 mart 2016



# Milli cəngəlliyimizə safari

Zamin HACI
zaminhaci@gmail.com

**Heç cür anlamaq olmur uca millətimizin qarnının ağrısı nədir. Vətəndə yaradılan müsbət şəraiti bəyənmirlər, qaçırlar xaricə, ancaq orda da görürsən narazılıq edirlər. Örnək üçün, oxucumuz Azad M.-in İsveçdən yazdığı məktuba diqqət edək:**

"Uzun illərdir mən İsveçdə yaşayıram. Son zamanlar mətbuatda Azərbaycanın xaricdəki səfirliklərinin yarıtmaz işindən, diplomatların fərariliyindən çoxlu yazılar gedir. Azərbaycanın İsveçdəki səfirliyi bu mövzuda "gül vurur". Məlumdur ki, hər ölkənin xaricdəki səfirliklərinin görəcəyi işlərin başında həmin ölkəyə gəlmək istəyənlərə viza vermək durur. Azərbaycanın İsveçdəki səfirliyi viza məsələsini "Comet Consular" adlı kommersiya firmasına həvalə edib, o firma da insanları süründürərək Azərbaycan vizasını ən azı 70 avroya və 15 günə verir. Məlumdur ki, bir neçə il öncə İlham Əliyev Avropa Birliyi ilə vizaların sadələşdirilməsi haqda müqavilə imzalamışdı, orda birinci şərt o idi ki, Avropadan Azərbaycana gələnlər maksimum 30 avro viza rüsumu ödəməlidir. Bəs nəyə görə İsveçdəki səfir prezidentin fərmanını vecinə almır? Viza məsələlərinin kommersiya firmasına tapşırılması səfirin hansı kommersiya maraqları olduğunu ortaya çıxarır".

Burada məktuba qısa ara verib qeyd edim ki, Azad bəy görünür dünya praktikasında viza işlərinin hansısa firmalara tapşırılması hallarından xəbərsizdir. Bu, olan şeydir. Ancaq viza minimum 30 avro olmalıymış, bax, buna bir sözüm yoxdur, çünki dəqiq bilmirəm necədir. Lap o yana qalanda, bizim respublika onsuz da kommersiya firması kimi idarə edilir, bütün məmurlar və dövlət qulluqçuları isə biznesmendir. Hətta bu yaxında Mərkəzi Bankın da dövlət qurumu yox, azad biznes olduğunu açıqladılar. Bir gün Konstitusiya Məhkəməsinin maliyyə piramidası, Baş Prokurorluğun azad ticarət zonası, Təhsil Nazirliyinin isə əslində nazirlik deyil, Moskva Dövlət Aqrar Akademiyasının Dağıstan Milli Aerokosmik Universitetinin Quba filialının Bakı kolleci olması ortaya çıxsa qəti təəccüblənmərəm.

**Məktubu oxumağa davam edək:** "Azərbaycan səfirliyinə zəng etmək və ya hər hansı məlumat almaq İsveçdə çox müşkül məsələdir. Haçan getsən qapılar qapalı, nə vaxt zəng etsən avtocavablayıcının səsi gəlir. Bəs insanlar görəsən səfirliklə necə əlaqə saxlamalıdır? İnsanları niyə narazı salırlar? Azərbaycana gəlmək istəyən isveçlilər də bu durumdan çox narazıdır. Hər hansı başqa ölkəyə viza almaq ən geci 1-2 günə başa gəlir. Azərbaycan vizasını isə 15 iş günü gözləməlisən. Dünya ölkələrində səfirliklərin saytı adətən 3 dildə - ingilis dilində, işlədiyi ölkənin dilində, bir də ana dilində olur. Azərbaycanın İsveçdəki səfirliyinin saytı isə ancaq ingilis dilindədir. Görəsən bu saytı İsveç və Azərbaycan dillərində çalışdırmaq çox çətindir, buna görə də səfirə pul verməliyik? Nə vaxt düzələcək bunlar? Səfiri İsveçə alver eləməyə yox, Azərbaycanın maraqlarını təmsil eləməyə göndəriblər". Məktubun sonu.

Axırıncı cümlə də necə sadəlövhdür... Alver eləmək elə Azərbaycanın maraqlarını təmsil etməkdir. Qoy heç olmazsa bir nəfər orda xoşbəxt olsun.

İsveç yazdım, İsveçrə yadıma düşdü. Yayda orda referendum olacaq, səsverməyə qoyulan sual isə çox maraqlıdır: "İşləyib-işləməməyindən asılı olmayaraq hər bir isveçrəliyə 2500 İsveçrə frankı (2250 avro eləyirmiş) verilməsinə razısınızmı?" Düzü, bilmirəm hansı səfeh bunun əleyhinə səs verəcək, çünki dünya tarixində görünməmiş yenilikdir, kommunizmin qurulması fason bir şeydir. Görün dövlət, xalq öz inkişafında hara gedib çatmışdır. Bizdə isə hansısa qotur bankdan kredit götürüb eşşək arabası alan vətəndaş pulu ödəyə bilməyəndə dama basırlar. Nəinki özünü, zamin duranı da! Son olaraq bir zaminə 10 sutka həbs veriblər.

Bax, Azərbaycana viza almaq belə qədim tarixi hadisələrə görə çətindir, bahalıdır. Elə bil uçağa minib gəlirsən, birbaşa mağara erasına, dinozavrların xalqı basıb yediyi zəmanəyə düşürsən. Ekzotik tur baha olmalıdır. Dünya standartı belədir.

# Kreml Bakının strateji seçimini asanlaşdırdı - Azərbaycan üçün əlverişli gəlişmə

## Putinin hərbi qüvvələri Suriyadan çıxarmaq qərarının pərdəarxası; rəsmi Bakının iki güc arasında seçim problemi aktuallığını itirir; Ankara-Moskva barış körpülərinin bərpası tezləşə bilər...

**Rusiya prezidenti Vladimir Putin Suriyada 5 ay yarımdır davam edən hərbi əməliyyatları dayandırmaq və əsas hərbi qüvvələri bu ölkədən çıxarmaq qərarı verib. Bu, son günlərin ən mühüm olaylarından biri sayılır. Ən azı, ona görə ki, Yaxın Şərqdəki hərbi-siyasi mənzərə məhz Moskvanın Suriya böhranına birbaşa müdaxiləsi ilə xeyli dərəcədə gərginləşmiş və olduqca təhlükəli həddə gəlib çıxmışdı.**

Qərarın önəmini ondan dərhal sonra Vladimir Putinlə ABŞ prezidenti Barak Obama arasında telefon danışığı da təsdiqləyir. Rəsmi məlumatlara görə, prezidentlər hərbi hissələrin çıxarılmasını Suriyadakı mövcud vəziyyət kontekstində müzakirə ediblər. "Tərəflər qeyd edib ki, BMT TŞ-nin 2268 saylı qətnaməsi ilə dəstəklənən Rusiya-ABŞ təşəbbüsü Suriyada münaqişənin miqyasının kəskin azaldılması ilə nəticələnib" - məlumatda qeyd olunur.

ABŞ prezidentinin təşəbbüsü ilə baş tutan telefon danışığı zamanı Obama və Putin həmçinin, atəşkəsin qorunması və terror qruplaşmaları ilə effektiv mübarizə üçün Rusiya və ABŞ nümayəndələrinin səylərinin razılaşdırılmasının vacib olduğunu qeyd ediblər.

***

Putinin nədən belə bir qərar verdiyi ciddi müzakirə mövzusudur. Bu ilginc gəlişmə ilə bağlı müxtəlif rəy və yanaşmalar var. Bir şey dəqiqdir ki, Rusiya Suriyadan qalib kimi çıxa bilmədi. Bu, heç mümkün də deyildi. Çünki Obamanın sözləri ilə desək, Rusiya Suriyada bataqlığa girmişdi - bundan xəbərsiz olsa da. Sadəcə, Ukrayna məsələsinə görə təklənən Kreml bu yolla qismən izolyasiyadan çıxmaq və qlobal güc olaraq özünü təsdiqləmək istəyirdi. Fəqət, alınmadı. Üstəlik, Moskva Türkiyə kimi mühüm və etibarlı bir tərəfdaşı, NATO ölkəsini itirdi, onunla müharibə vəziyyətinə gəlib çıxdı. Bu da hələ Kremlin itirdiklərinin hamısı deyil.

Ancaq deyirlər, "Ziyanın yarısından qayıtmaq da xeyirdir". Görək bunun ardınca Putinin hansı sürpriz addımları olacaq. Bəzi təhlilçilərə görə, Rusiyanın Suriyadan nə ilə çıxdığı dəqiqliklə Suriya böhranı yoluna qoyulduqdan sonra bilinəcək. Hərgah, bəzi fərqli fikirlər də var.

"Cenevrədə Suriya üzrə keçirilən tam formatlı sülh danışıqlarının Rusiyanın bu ölkədəki hərbi birləşmələrinin əsas hissəsini çıxarmaq qərarı üst-üstə düşməsi göstərir ki, Suriya məsələsində ciddi irəliləyiş əldə olunub". Bu barədə ABŞ-ın kəşfiyyat-analitika mərkəzi "Stratfor" yazıb (Avropa.info).

**"Stratfor"un fikrincə, "Cenevrədə əldə olunacaq razılaşmaları diqqətlə izləmək lazımdır:** "Ümumilikdə Rusiya keçən il sentyabrda başladığı hərbi kampaniyada qarşısına qoyduğu tapşırıqları yerinə yetirib: 1.Bu müddətdə müxalifət tam məğlub olmasa da, Əsəd qüvvələri möhkəmlənməyi bacarıb. 2.Moskva öz ordusunun döyüş qabiliyyətini kifayət qədər nümayiş etdirə bilib. Daha əvvəl istifadə olunmamış yeni texnika Suriyada sınaqdan çıxarılıb. 3.Kreml İŞİD-in zəiflədilməsi missiyasına öz töhfəsini verməyi bacarıb".

Qeyd edək ki, "Stratfor"un bu yazısı təəccüblə qarşılanıb. Çünki əksər siyasi analitiklər əslində Rusiyanın Suriyada hər hansı ciddi uğura imza atmadığı qənaətindədirlər. Bundan əlavə, Moskva Suriyada İŞİD-ə qarşı deyil, daha çox müxaliflərə qarşı bombardmanlar həyata keçirib ki, "Stratfor"un yanaşması bu kontekstdə də təəccüblə qarşılanıb.

***

**Bu xüsusda politoloq Rasim Musabəyov da öz facebook səhifəsindəki yazısında tam fərqli bir mövqe ortaya qoyub:** "Bəllidir ki, İran öz hərbi qüvvələrini xeyli əvvəl Suriyadan çıxarmışdı. Tehranın ardınca Putin də başa düşdü ki, Suriya bir bataqlıqdır və orada yaxın zamanlarda nə qələbə, nə də sabitlik mümkün deyil, amma arxasında NATO-nun durduğu Türkiyə ilə hərbi toqquşma ehtimalı var. Bundan əlavə, Moskva üçün Səudiyyə Ərəbistanına qarşı durmaq da riskli idi, çünki ər-Riyadla neftin qiyməti ilə bağlı anlaşma əldə eləmək daha arzuolunan idi. Ona görə də Putin dayanmaq qərarı verdi. Amma Rusiyanın Krımın işğalından sonra düşdüyü izolyasiyadan çıxmaq problemini Putin yoluna qoya bildi. Onunla indi həm ABŞ, həm də Avropa Birliyi danışır - hərçənd sanksiyaları götürməyə tələsmirlər. Putin Suriyada öz hərbi gücünün nümayişini təşkil elədi və güman edir ki, bundan sonra onunla razılığa gəlinəcək".

Başqa ehtimallara görə, Suriyadan sonra Moskvanın növbəti hədəfi yenidən Ukrayna ola bilər. Mümkündür. Ona görə ki, qarşıdan hərbi əzələ nümayişi üçün uğurlu yay mövsümü gəlir.

Onu da unutmaq olmaz ki, Kreml Qərblə Suriya məsələsi üzərindən siyasi bazarlıq yapmaqla Krımın ilhaqını gündəmdən çıxarmağa, Güney Qafqazda daha da möhkəmlənmək üçün Qərbdən yeni "kart-blanş" almağa çalışırdı. Bun isə nail olmayıb. Üçüncü yandan, Rusiya daxilindəki narazı toplumun diqqətini təzədən xaricə yönəltmək zərurəti aktuallığını saxlayır.

Nüfuzlu amerikalı respublikaçı senator və prezidentliyə



sabiq namizəd Con Makkeyn də o qənaətdir ki, Rusiya Suriyadan məhz Ukraynaya daha rahat müdaxilə eləmək üçün çıxıb...

***

Azərbaycan üçün də yetərincə yeni və nəzəri cəhətdən daha pozitiv və əlverişli situasiyanın yarandığını söyləmək mümkündür. Məsələ ondadır ki, Putinin qərarı ilə 1 nömrəli strateji müttəfiqimiz Türkiyənin Rusiya ilə Suriyada hərbi toqquşma ehtimalı faktiki surətdə gündəmdən çıxmış olub.

Deməli, iki dövlətin barışığına olan ümidlər də artıb və rəsmi Bakının Moskva və Ankara arasında seçim problemi xeyli asanlaşıb. Bu seçimə əslində lüzum qalmayıb. Paralel surətdə Qarabağ münaqişəsi ətrafında daha olumlu bir atmosferin yaranmasına yol açılıb.

O da diqqətçəkicidir ki, Kreml başçısının qoşunları çıxarmaq qərarı Ankaradakı son terror olayından cəmi bir gün sonraya təsadüf edir. Söz düşmüşkən, bu qanlı terror hücumu ilə bağlı Türkiyəyə dərhal başsağlığı verənlər arasında Putin də var. Hər necə olmasa, Türkiyənin terrorçuları təqib eləmək üçün Suriyaya girməsi və orada Rusiya ilə toqquşması istisna olunmurdu...

Bu arada Suriyadan çıxarılacaq Rusiya hərbi qüvvələrinin Azərbaycandan keçə biləcəyi barədə xəbər yayılıb. Belə ki, "Rossiya 24" telekanalı qoşunların Suriyadan çıxarılma marşrutları sırasında Azərbaycanı da göstərib. Kanal dəqiq uçuş istiqamətlərinin məxfi olduğunu, bunun üçün ən rahat marşrutların isə İraq, İran və Azərbaycandan keçməklə mümkün ola biləcəyini qeyd edib.

Belə bir xahiş olarsa, Azərbaycan yəqin ki, buna etiraz etməyəcək. Hər necə olmasa, bu, Bakının dolyasıyla da olsa Moskva-Ankara gərginliyinin səngiməsinə töhfəsi olardı.

❑ **Analitik xidmət**



# İlham Əliyevdən kritik Ankara səfərində önəmli mesajlar

## Dövlət başçısı "Türkiyənin yanındayıq" dedi; Ərdoğan: "Azərbaycan qara günün dostu olduğunu göstərdi"; ölkələr arasında 6 sənəd imzalandı





**Azərbaycan prezidenti İlham Əliyev martın 15-də Türkiyəyə işgüzar səfərə gedib. Xatırladaq ki, əslində martın 15-də Türkiyə prezidenti Azərbaycana rəsmi səfərə gəlməliydi. Ancaq martın 13-də Ankarada baş verən dəhşətli terrorla əlaqədar olaraq prezident Rəcəb Tayyib Ərdoğan Bakıya gələ bilməyib. Buna qarşılıq olaraq İlham Əliyev görüşün Ankarada baş tutması təşəbbüsü ilə çıxış edib və bu təşəbbüs Türkiyə rəsmiləri tərəfindən məmnunluqla qarşılanıb.**

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan İlham Əliyevi Ankarada çox mehriban qarşılayıb. Ankarada rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra prezidentlərin təkbətək görüşü olub.

Sonra isə Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının V iclası keçirilib.

Toplantıda ikitərəfli əlaqələrin genişlənməsi və inkişafına dair məsələlər müzakirə olunub. Türkiyə ilə Azərbaycan arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında 6 sənəd imzalanıb.

### Prezidentlərin mətbuat konfransında mesajlar: "İndi Putin düşünsün"

**Rəcəb Tayyib Ərdoğan mətbuat konfransında deyib ki, terrordan bir vasitə olaraq istifadə edənlər Türkiyəni diz çökdürə bilməyəcək, özləri diz çökəcəklər, Azərbaycan kimi dost və qardaş ölkələrin də dəstəyi ilə bu sıxıntıları arxada qoyacaqlar:** "Prezident İlham Əliyev başda olmaqla, Azərbaycan xalqına təşəkkür edirəm. Dəyərli qardaşım İlham Əliyevin bu addımı Azərbaycan və Türkiyənin terrora qarşı birgə olduğunu göstərmək baxımından da çox önəmlidir. Azərbaycan qara günün dostu olduğunu göstərdi. Buradakı mesajın hər kəs tərəfindən diqqətə alınmasını tövsiyə edirəm. Hər kəs bu qardaşlıq mesajından dərsini almalıdır. Biz Dağlıq Qarabağ məsələsində Azərbaycanın yanında olduq və olmağa davam edəcəyik".

Türkiyə prezidenti bildirib ki, iclasda enerji, nəqliyyat-kommunikasiya, müdafiə sənayesi və hərbi əməkdaşlıq məsələləri müzakirə olunub.

**R. T. Ərdoğan qeyd edib ki, Türkiyə ilə Azərbaycan arasındakı Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasları 1 il Azərbaycanda, 1 il Türkiyədə keçirilməyə davam edəcək:** "Qarşıdakı dövrdə yenə bir araya gələcəyik. İstanbulda İslam Əməkdaşlıq Təşkilatının toplantısı olacaq, o iclasda yenə görüşəcəyik. Martın sonunda Vaşinqtonda nüvə sammitində də bir araya gələcəyik. Bundan başqa, dəyərli qardaşımı 23-24 mayda Türkiyədə keçiriləcək Beynəlxalq Humanitar Sammitə dəvət etdim. Bundan əvvəl - aprelin 25-26-da mədəniyyətlərarası dialoqla bağlı tədbirdə iştirak üçün Bakıda olacağam. Dekabrda isə Bakı-Tbilisi-Qars dəmir yolunun birgə açılışını həyata keçirəcəyik. 2015-ci ildə əldə olunmuş 15 milyard dollarlıq ticarət dövriyyəsi hədəfini qoruyuruq. Qarşılıqlı sərmayələrimiz 13 milyard dollardır, 5 il ərzində bunu 20 milyard dollara çıxarmağı planlaşdırırıq".

**İlham Əliyev öncə Ankarada terror aktı nəticəsində ölənlərin yaxınlarına başsağlığı verib və bu dəhşətli terror aktını qətiyyətlə qınadığını, türk xalqının yanında olduğumuzu bəyan edib. Birliyimizin əbədi, sarsılmaz olduğunu deyib:** "Azərbaycan və Türkiyə yaxşı və ağır günlərdə daim bir-birinin yanındadır. Türkiyə xalqına qarşı törədilmiş terror aktlarının heç bir nəticəsi olmayacaq. Bu, Türkiyəni haqq yolundan döndərə bilməz. 25 ildir ki, Azərbaycan və Türkiyə bir-birinə dəstəkdir. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, biz heç vaxt bunu unutmayacağıq. Türkiyə və Azərbaycan bir-birinə ən yaxın olan ölkələrdir. Türkiyə və Azərbaycan beynəlxalq müstəvidə daim bir-biri dəstəkləyir. Türkiyənin dünyada rolu artır, Türkiyəyə dünyada artan rəğbət və inam bizi sevindirir. Türkiyə nə qədər güclü olarsa, Azərbaycan da bir o qədər güclü olar. Biz TANAP və TAP layihəsini vaxtlı-vaxtında icra etməyə çalışacağıq. İnanıram ki, 2 il sonra TANAP-ın açılışını qeyd edəcəyik".

**Dövlət başçısı qeyd edib ki, Türkiyə hər zaman Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquqa uyğun həll edilməsinə dəstək verib:** "Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycan ədalətsizliklə üzləşib. Türkiyənin dəstəyi bizim üçün çox önəmlidir. Bu yaxınlarda hərbçilərimiz birgə təlimlər keçirib. Bu da çox yaxşı ənənədir. Biz Türkiyədən müxtəlif hərbi texnika və silah alırıq. Türkiyənin müdafiə sənayesi sahəsində uğurları Azərbaycanın da müdafiə qabiliyyətini gücləndirir".

**İlham Əliyev Suriyadan gələn milyonlarla qaçqına sığınacaq verən Türkiyəyə minnətdarlıq edib və bildirib ki, Türkiyə bu addımı ilə dünyaya nümunə göstərib:** "Bu gün qaçqınlar problemini görürük və əsas yük Türkiyənin üzərinə düşür. Türkiyə böyük sayda qaçqınları ölkəsində yerləşdirir, böyük vəsait xərcləyir. Azərbaycan bunun nə qədər ağır məsələ olduğunu bilir, 1990-cı illərdə Ermənistanın işğalı nəticəsində ağır humanitar çətinliklə üz-üzə qalmışdıq".

Mətbuat konfransının sonunda Ərdoğan və İlham Əliyev bir neçə dəfə və daha mehriban qucaqlaşıblar. Türk mediası bunu dərhal ilginc başlıqlarla, məsələn, "İndi Putin düşünsün"kimi sərlövhələrlə manşet xəbərlərinə çıxarıblar. Ümumiyyətlə, Azərbaycan prezidentinin Ankaraya indiki vaxtda səfəri Türkiyədə ciddi rəğbətlə qarşılanıb, siyasi mövqeyindən asılı olmayaraq  qardaş ölkə mediası bunu "qardaşın-qardaşa köməyə gəlməsi" kimi dəyərləndirib.

### Azərbaycan prezidentinin Ankaraya gəlməsinə yüksək qiymət

**Türkiyə iqtidarı ilə yanaşı müxalifət və müstəqil mütəxəssislər də İlham Əliyevin Türkiyə səfərini yüksək qiymətləndiriblər.**

**Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının (MHP) tanınmış simalarından olan İsa Yaşar Tezel musavat.com-a açıqlamasında deyib ki, Azərbaycan prezidentinin bu gözəl jestini Türkiyə və türk xalqı heç bir zaman unutmayacaq:** "Əmin olun, bu, Türkiyə dövlətinə və türk millətinə çox böyük ruh yüksəkliyi verəcək. Odur ki, Azərbaycan prezidenti hörmətli İlham Əliyevin Türkiyəyə səfər etməkı qərarını dəstəkləyirəm. Türk dövlətinin və millətinin buna ehtiyacı var idi. Azərbaycan dövlətinin ən ağır günlərimizdə bizim yanımızda olması türk millətini çox şad etdi və bəzi qonşu dövlətlərə də mesaj oldu. Azərbaycan prezidentinin bu gözəl jestini dövlətimiz və millətimiz heç bir zaman unutmayacaq".

**İsa Yaşar Ankara terrorunun artıq ikinci dəfə prezident Ərdoğanın Azərbaycana nəzərdə tutulan ziyarəti ərəfəsində törədilməsinin düşünülmüş olduğunu istisna etməyib:** "Bu, həm təsadüf, həm də Türkiyə-Azərbaycan münasibətlərini baltalamaq istəyən güclərin barmağı ola bilər. Rusiya ilə təyyarə böhranından sonra prezident İlham Əliyevin "qazı biz veririk" açıqlaması Türkiyə xalqında dərin bir sevinc və sevgi yaratdı. İndi bölgədə tək dostumuz-qardaşımız olan Azərbaycanla əlaqələrimizi pozmağa, münasibətlərimizə əngəl olmağa çalışa bilərlər. Rusiya Ermənistan, Suriya və PKK-ya lojistik dəstək verməkdədir. PKK Ermənistan mobil operatorundan istifadə edir, telefon və simsiz əlaqələrini Ermənistan operatorları vasitəsilə həyata keçirir. Durum belə bir mərhələyə gəlmişkən bölgədə bizi tərk etməyən tək ölkə Azərbaycanla əlaqələrimizi, əlbəttə, pozmaq istəyəcəkdilər. Buna hazırlıqlı olmalıyıq".

**İstanbuldakı Yeni yüz il Universitetinin prorektoru Yaşar Hacısalehoğlu APA-ya deyib ki, İlham Əliyevin bu anlamlı səfəri diplomatiyanın üstündə olan hadisədir:** "Prezident İlham Əliyev qətiyyət nümayiş etdirib, bu addımı atıb. Burada səmimiyyət, qardaşlığın şərtlərini tərəddüdsüz yerinə yetirmək, "Bir millət, iki dövlət" prinsipinə sadiqlik var. Son illərdə Türkiyə ilə Azərbaycan arasında başda enerji olmaqla, bir çox sahələrdəki yaxınlaşma bəzi ölkələri narahat etməkdədir. İki qardaş ölkənin əməkdaşlığına mane olmaq vasitələrindən biri də terror aktıdır. Türkiyənin bu sıxıntılı günlərində prezident İlham Əliyev başda TANAP layihəsi olmaqla, iki ölkə arasındakı əməkdaşlığı daha da dərinləşdirmək məqsədi daşıyan məsələlərin  Ankarada da müzakirə oluna biləcəyini dünyaya göstərib. Bu addım istər Türkiyə-Azərbaycan münasibətləri, istərsə də diplomatiya tarixində çox mühüm bir hadisə kimi tarixə düşüb".

# Türkiyədə 20 mart həyəcanı

## Ankarada törədilən üçüncü dəhşətli terror aktından sonra siyasi dairələrdə və ictimaiyyət arasında bu terror aktlarının davam edəcəyinə dair əndişələr var

**Ankarada ard-arda baş vermiş terror aktlarından sonra paytaxt polisinin təhlükəsizlik idarəsinin rəhbəri dəyişdirilib. Bu haqda Türkiyə mediası məlumat yayıb. Məlumata görə, prezident Ərdoğanın sərəncamı ilə Ankara polisinin təhlükəsizlik idarəsinin rəisi vəzifəsinə Van polisinin təhlükəsizlik idarəsinin rəisi Mahmud Karaaslan təyin edilib. Van polisinin təhlükəsizlik idarəsinin rəisi vəzifəsinə isə İstanbul polisinin təhlükəsizlik idarəsi rəisinin müavini Suat Əkici gətirilib.**

Ankaradakı son terror hadisəsi ilə əlaqədar Fransadan Türkiyəyə jest sayılacaq addım atılıb. Belə ki, Fransanın İstanbuldakı Konsulluğunda bayraq endirilib. Fransanın İstanbuldakı baş konsulu Muriel Domenach öz şəxsi twitter səhifəsində bayraq şəkli paylaşaraq türk xalqına başsağlığı verib.

Son beş ayda Ankarada törədilən 3-cü dəhşətli terror aktından sonra siyasi dairələrdə və ictimaiyyət arasında bu terror aktlarının davam edəcəyinə dair əndişələr var. **MHP-nin tanınmış simalarından olan İsa Yaşar Tezel facebook səhifəsində bu xüsusda öz narahatlığını ifadə edən status paylaşaraq, cəmiyyəti diqqətli olmağa çağırıb. Onun sosial şəbəkədə paylaşdığı qeydlərdə bildirilir:** "Bir çox mənbədən əldə olunan bilgilərə görə, PKK, PYD və solçu terror təşkilatları martın 20-də Türkiyəni qan gölünə çevirəcək böyük bir aksiyaya hazırlaşırlar. Asayiş və təhlükəsizlik xidmətləri PKK/KCK və PYD/YPG üzvü olan terrorçuların "fədai" tipli aksiyalarda istifadə etməyi planlaşdırdığı 20 bombalı maşını təsbit edib. Elan edilən terror xəbərdarlığında xüsusilə də hakim AKP-nin təşkilat binaları, TBMM, hərbi hissələr, diplomatik korpuslar, turistik yerlər, hava limanları, həssas bölgələr, alış-veriş mərkəzləri, meydanlar, ictimai nəqliyyat vasitələri, mitinq meydanları, ibadət yerləri, metro stansiyaları, ictimai binalar, polis və hərbi məntəqələrdə ola biləcək bir hücuma qarşı hazırlıq olmaq istənilir. Novruz bayramı öncəsi etiraz və nümayişlərin artması, bunlara yönəlik təhlükəsizlik tədbirlərinin də gücləndirilməsi gözlənilir.

Ona görə də toplaşmaların olduğu hər yerdən uzaq durun, hədəf ola biləcək yerlərdən *(hökumət təsisləri, səfirliklər, ticarət mərkəzləri kimi)* uzaq durun, səfərlərinizi bu həftə üçün edilən xəbərdarlıqlara uyğun olaraq dəyişdirin, ailənizi durumdan xəbərdar edin".

Daha sonra İsa Yaşar Tezel ola biləcək terror aktında istifadə olunmaq üçün nəzərdə tutulan avtomobillərin nömrələrini, markalarını və digər xüsusiyyətlərini paylaşıb. Sonda isə qeyd edib ki, bu xəbərdarlıq bugünlərdə Türkiyəyə səfər edəcək minlərlə Azərbaycan vətəndaşı üçün də keçərlidir.

Ankarada 37 insanın ölümünə səbəb olan terror aktının təşkilatçılarından biri olan Seher Çağla Demirin atası isə ilk dəfə danışıb. Tekirdağda yaşayan ata qızı ilə bağlı açıqlamalar verib. Adının açıqlanmasını istəməyən kişi qızı ilə 2013-cü ildən bu yana heç görüşmədiyini söyləyib: **"Səhər universitetə gedən tək uşağımdır. Polislər gəldi, xəstəxanaya getdik və DNT testi etdilər. Qızım belə bir hadisəyə qarışıbsa, cənazəsini də qəbul etmirəm".**

Gənc qızın atası polisə verdiyi ifadəsində 2012-ci ildən bəri qızından bir daha xəbər ala bilmədiyini söyləyib. Yaşlı kişi qızının itkin düşdüyü barədə polisə müraciət edibmiş.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 60 (6381) 16 mart 2016

**Ağcabədidə sahibkarlar icra hakimiyyətinin fəaliyyətindən və icra başçısı Şahin Məmmədovun onlara qarşı təzyiqlərindən narazıdır. Əsasən kənd təsərrüfatı ilə məşğul olan sahibkarlar onlara yaradılan süni maneələrlə bağlı müvafiq qurumlara etdikləri şikayətə baxılmadığını deyirlər.**

# Sahibkarlar Ağcabədinin icra başçısını ittiham edir

## Kənd təsərrüfatı ilə məşğul olan iş adamları deyir ki, Şahin Məmmədov dövlət büdcəsindən yol tikintisi və kəndlərə su çəkilməsi məqsədi ilə ayrılan vəsaitləri də mənimsəyib

Musavat.com-a müraciət edən ağcabədili sahibkarlar qarşılaşdıqları problemlərdən danışıblar.

Onlardan biri də Ağcabədi rayon sakini Nizami Nərimanovdur. Artıq 7 ildən çoxdur icra hakimiyyəti ilə aralarında məhkəmə çəkişməsinin getdiyini deyən sahibkar icra başçısının ona qarşı müxtəlif yollarla təzyiq göstərdiyini iddia edir.

**Ağcabədidə kənd təsərrüfatı ilə məşğul olan N.Nərimanov icra hakimiyyəti ilə aralarında yaranan problemlərdən sonra təsərrüfatının 2 dəfədən çox azaldığını deyir:** "Kənd təsərrüfatı ilə məşğul olmağa başlayanadan sonra 2008-ci ildə 280 qoyunum, 35 baş mal-qaram var idi. Hazırda 12 baş mal-qaram və 140 qoyunum qalıb. Bunun da səbəbi icra başçısı tərəfindən mənə qarşı müxtəlif yollarla problemlərin yaradılmasıdır. Əkin ərazimin yanından keçən şor kanalın qarşı kəsildi. Əkin sahəm şoranlaşdı. 7 ildən çoxdur müraciət etmədiyim dövlət qurumu qalmayıb".

**İcra başçısının bələdiyyə torpaqlarını satdığını, sahibkarlardan ticarət obyektlərinin tikintisi üçün qeyri-qanuni şəkildə pul tələb etdiyini iddia edən sahibkar icra hakimiyyəti ilə aralarında yaranan çəkişmənin də elə bu səbəbdən başladığını deyir:** "Sahibkarlıq fəaliyyətimi artırmaq, istehsal etdiyim kənd təsərrüfatı mallarını satmaq üçün 2008-ci ildə icra hakimiyyətindən yer istədim. Rayonun mərkəzində mağaza açmaq istəyirdim. Ancaq elə bir məbləğ istədilər ki, verə bilmədim. Bu məsələ ilə bağlı bütün dövlət qurumlarına müraciət etmişəm. Artıq vurduğum teleqramları sayla deyil, kiloqramla ölçürəm. Bütün şikayətlərim və müraciətlərim yenidən icra hakimiyyətinə qaytarılır. Rayondakı bütün obyektlər icra başçısı tərəfindən rayon sakinləri olmayan şəxslərə satılıb".

**Ölkə rəhbərliyinə, Ədliyyə Nazirliyinə, Baş Prokurorluğa, Prezident Administrasiyasına etdiyi şikayətlərdən sonra icra başçısı tərəfindən təzyiqlərə məruz qaldığını deyən sahibkar dəfələrlə məhkəməyə verildiyini söyləyir:** "5 ildir məhkəmə gedir. Əvvəl məni məhkəməyə verdilər ki, guya qanunsuz olaraq tövlə tikdirmişəm. Ancaq mən islahatdan əvvəl, 1996-ci ildə icra hakimiyyətinin sərəncamı ilə o zaman kolxozdan 60 hektar torpaq sahəsi və 100 baş qoyun almışdım. Həmin zamanda o heyvanları saxlamaq üçün tövlə tikdirmişəm. Torpaq şöbəsindən və polisdən gəlib baxış keçirdilər. Məlum oldu ki, pay torpağında tikdirməmişəm və burada qanunsuz heç bir hal yoxdur. 2009-cu ildə bələdiyyədən çıxarış almışam ki, islahatdan əvvəl tikilib və mənim torpaq sahəm nə yola düşür, nə də kiməsə maneçilik törədir. 2014-cü ildə Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti vasitəsilə mən məhkəməyə verildim. Guya tövləni şor kanalın mühafizə hissəsində tikmişəm. Meliorasiya idarəsindən də sənədim var ki, tövlə şor kanalın mühafizə xidmətinə düşmür. Lakin məhkəmə tövlənin sökülməsi ilə bağlı qərar verdi. Yuxarı instansiyalara müraciət etmişəm. Hələ ki işə tam baxılmayıb. Ancaq həmin ərazilərdə mühafizə zolaqlarının üstündə yüzlərə tövlə və ticarət obyektləri var. Amma onlara heç bir söz deyilmir. İcra başçısının birinci müavini Rövşən Əhmədov şikayətlərimə görə Ağcabədi Rayon Məhkəməsinə müraciət edərək şərəf və ləyaqətlərinə xələl gətirdiyim iddiası ilə məndən 50 min manat təzminat istəyib. Daha sonra icra başçısı da məni məhkəməyə verib. Sahibkarlıq fəaliyyətimi artırmağıma kömək etmək əvəzinə mənə bütün problemlər yaradılıb".

**İcra başçı ilə bağlı dövlət qurumlarına ünvanlandığı məktubları rayondan yox, başqa şəhərlərdən göndərdiyini deyən sahibkar bunun səbəbini belə izah edir:** "Şikayət məktublarımı Ağcabədidən göndərə bilmirəm. Rayon poçtundan məktubların getməsinə imkan vermirlər. Başqa rayon və şəhərlərə gedərək məktubları göndərirəm".







Rayonda aparılan abadlıq işlərinin icra hakimiyyəti tərəfindən yerli sahibkarlara götürüldüyünü deyən N.Nərimanov iddia edir ki, bununla da dövlət büdcəsindən ayrılan vəsaitlər icra başçısı tərəfindən mənimsənilir.

**İcra başçısından narazı olan digər bir sahibkar isə Elqayıt Kərimovdur. Kənd təsərrüfatı ilə məşğul olan E.Kərimov deyir ki, bir neçə ildir icra hakimiyyəti tərəfindən yaradılan problemlər sahibkarların fəaliyyətinə ciddi problemlər yaradıb. Təsərrüfatla məşğul olan sahibkarların əlindən torpaq sahələri alınıb.**

"2013-cü ilin aprel ayında 120 sahibkarın iştirakı ilə keçirilən görüşdə icra başçısı dedi ki, torpaqları alıb pilot təsərrüfatlar yaradacağıq, taxılçılığı inkişaf etdirəcəyik. Dedik ki, bu qədər mal-qaramızı hara aparaq? Dedi ki, nə edirsinizsə edin. Biz də bir qrup sahibkar olaraq buna etiraz edib çıxdıq. Kənd təsərrüfatı ilə məşğul oluram. Bu il imkan verilmədi ki, yonca əkək. 2 hektardan artıq ərazidə əkin aparmağa icazə verilmədi. Dedilər dövlətin torpağıdır, olmaz".

**İcra başçısına qarşı da sərt ittihamlar səsləndirən sahibkar iddia edir ki, Şahin Məmmədov dövlət büdcəsindən yol tikintisi və kəndlərə su çəkilməsi məqsədilə ayrılan vəsaitləri mənimsəyib:** "Restoranların yeri 5-10 minə, şadlıq sarayları 100-150 minə, mağazalar isə 20-30 minə satılır. Bunu ödəməsən, sahibkarlıqla məşğul ola bilməzsən. Kəndə içməli su xətləri çəkilməli idi, amma çəkilmədi. 10 artezian adına ikisi qazıldı.






Rayonda dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına görülməli işlər ayrı-ayrı qurumların rəhbərlərinə, sahibkarlara gördürülür. Rayon mərkəzindəki küçələrdə abadlıq işlərini dövlət idarələrinin işçiləri görürlər. Küçələri icra hakimiyyətinin əməkdaşları süpürür. İcra hakimiyyətində sosial- iqtisadi inkişafın təhlili və proqnozlaşdırılma şöbəsinin müdiri olan Leyla Əsgərova əlində süpürgə küçə təmizləyir. Bunu sübut edən foto da var. Həmçinin başqa idarələrin əməkdaşları da küçələrdə işlədilir".

**Hər iki sahibkar deyir ki, rayonda sahibkarlara qarşı yaradılan problemlərdən şikayətçi olanların sayı çox olsa da, onlar şikayət etməkdən çəkinirlər.**

**Sahibkarların ittihamları ilə bağlı icra hakimiyyətinin də mövqeyini öyrəndik.**

**Rayon icra başçısının birinci müavini Rövşən Əhmədov musavat.com-a açıqlamasında sahibkarların ittihamlarını cavablandırdı:** "Sahibkar Nizami Nərimanov dövlətə məxsus, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin balansında olan su kanalının mühafizə ərazisində tövlə tikib. Bu qanunsuz olduğuna görə məhkəməyə verilib və məhkəmə prosesi davam edir. O, icra başçısına ünvanlandığı məktubda öz istehsal etdiyi məhsulları satmaq üçün obyekt istəyirdi. İcra hakimiyyətinin memarlıq və tikinti şöbəsi bir neçə yer təklif etsə də o, başqa bir vətəndaşın şəxsi mülkiyyətində olan ərazidən ona yer verilməsini istəyirdi. Bu isə təbii ki, mümkünsüzdür.

Elqayıt Kərimovun iddiasına gəlincə, bildirmək istəyirəm ki, pilot təsərrüfatla bağlı olaraq dövlət torpaqlarında taxıl sahələri salınacaq. Bu zaman da həmin ərazilərdə hansısa sahibkarın, vətəndaşın əmlakına, işinə ziyan dəyməsinə imkan verilməyəcək. Həmin torpaq sahələrindən Ağdam və Ağcabədi sakinləri də istifadə edir. Bəzi şəxslər bu günədək həmin ərazilərdən heç bir vergi ödəmədən istifadə ediblər".

**Rövşən Əhmədov dövlət büdcəsindən ayrılan vəsaitlərin icra hakimiyyəti tərəfindən mənimsənilməsi və abadlıq işlərinin sahibkarlar tərəfindən görülməsi ittihamlarına da cavab verdi:** "Heç vaxt Ağcabədidə belə proses olmayıb. Sahibkarlar müstəqildir. Ölkə rəhbərliyi belə sahibkarların fəaliyyətinə problem yaradılmamasını diqqət mərkəzində saxlayır. Kim sahibkara təzyiq edə bilər ki, o abadlıq işlərini görsün? Bunlar şər və böhtan xarakterli sözlərdir. İstənilən vaxt araşdırma aparıb deyilənlərin əsassız olduğunu sübut etmək mümkündür".

**Rayon ərazisində aparılan abadlıq və təmizlik işlərinə dövlət qurumlarında çalışan şəxslərin məcburi şəkildə cəlb olunmasına və icra hakimiyyətinin şöbə müdirinin əlində süpürgə rayon mərkəzində işləməsinə də münasibət bildirən başçının müavini deyir ki, bu normal haldır:** "Biz heç bir zaman işçiləri məcburi şəkildə işlətmirik. Biz torpağı, xalqı sevən insanlarıq. Əgər hansısa bir şəxs öz çalışdığı idarənin, yaşadığı rayonun ərazisində təmizlik işi görürsə, burada qəbahət yoxdur. Bu bütün rayonlarımızda belədir. Bu, insanların öz istəyidir. Bu iş səmimi şəkildə görülür, heç kəs də məcbur edilmir".

❑ **Musavat.com**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 60 (6381) 16 mart 2016



# "Qarabağ klanı"nın zülmündən bezən ermənilərin Türkiyəyə axını güclənib

## Ermənistan Rusiyanın girovluğunda qaldıqca əhalinin köçü sürətlənir; 2016-cı ildə işğalçı ölkənin hərbi itkiləri də artıb; danışıqlar dalanda ikən prezidentlərin növbəti görüşü nə vaxta qaldı?

**Dağlıq Qarabağ münaqişəsi zonasında vaxtaşırı hərbi eskalasiyalar yaşansa da hələ ki bunlar genişmiqyaslı toqquşmalara gətirməyib. Lakin aydındır ki, status-kvo uzun müddət indiki kimi qala, sülh danışıqları uzun müddət davam edə bilməz.**

Əfsuslar olsun ki, problemin dinc nizamlanmasına cəlb olunmuş dünyanın aparıcı gücləri üçün Qarabağ mövzusu hələ də gündəlikdə arxa plandadır. ATƏT-in Minsk Qrupu həmsədrlərinin başı daha çox Suriya (Yaxın Şərq) böhranına qatışıb. Yeri gəlmişkən, sülh danışıqlarında aparıcı vasitəçi dövlətlərdən olan Rusiyanın öz hərbi qüvvələrinin əsas hissəsini Suriyadan çıxarması mümkündür ki, Dağlıq Qarabağ məsələsi ətrafında situasiyaya da öz təsirini göstərsin. Lakin bu təsirin müsbət və ya mənfi planda olacağını indidən söyləmək çətindir. Niyə?

Məsələ ondadır ki, Moskvanın 5 ay yarım öncə Suriyaya hərbi müdaxilasində əsas hədəflərindən biri Beşər Əsəd rejimi ilə siyasi bazarlıq hesabına Ukrayna və Güney Qafqazda Qərbdən "kart-blanş" almaq olub. O sırada Kremlin Qarabağ konflikti zonasında sülhməramlıların yerləşdirilməsi məsələsində daha üstün mövqe qazanmaq istədiyi haqda da analitiklər ehtimallar səsləndirmişdilər.

Bundan əlavə, Rusiyanın Suriyadan çıxması ilə onun Türkiyə ilə hərbi toqquşma ehtimalının azalması da Dağlıq Qarabağa dair danışıqlar ətrafındakı atmosferə ılıqlıq qata bilər. Bütün hallarda bir qədər gözləmək, xüsusən də Kremlin Ukraynaya dair mövqeyinə hansı düzəlişləri edəcəyini hesablamaq lazım gələcək. Ondan sonra növbənin Qarabağ məsələsinə də çatacağını təxmin eləmək mümkündür. İstisna deyil ki, yeni situasiya ən azından həmsədrlər səviyyəsində fəallığa da öz təsirini göstərsin.

Vasitəçilər isə 2016-cı ilin üçüncü ayı getsə də, hələ ki bölgəyə bir dəfə də olsun səfər etməyiblər. Bəlkə də belə yaxşıdır. Çünki səmərəsiz turnelərdənsə, bir müddət konflikti "öz axarına buraxmaq" daha məqbul görünür. Üstəlik, həmsədrlərin AŞ PA-nın qış sessiyasında Qarabağa dair məlum qətnamə layihəsinə qarşı sərgilədikləri neqativ, ermənipərəst mövqe onların yeni səfərlərini bir az da mənasız edib.

***

Yaranmış situasiyada Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünün də xüsusi əhəmiyyəti qalmır. Bu barədə ötən il sonu etdiyi çıxışında Azərbaycan prezidenti İlham Əliyev kifayət qədər sərt tonda danışmış, həmsədr dövlətlərin yanaşmasını tənqid eləmişdi.

Xatırladaq ki, prezidentlər arasında sonuncu görüş keçən il dekabrın 19-da, İsveçrənin Bern şəhərində baş tutmuşdu. Ondan əvvəlki təmas isə 2014-cü il oktyabrın 27-də Parisdə olmuşdu. Yəni sonuncu görüşlə ondan əvvəlki arasında bir ildən çox fasilə yaranmışdı.

Əlbəttə ki, prezidentlər arasında getdikcə daha çətinliklə reallaşan və nəticəsiz bitən görüşlər ilk növbədə Minsk Qrupunun dişsiz fəaliyyəti, hətta fiaskosu ilə birbaşa bağlıdır. Həmsədrlərin məsələyə şablon yanaşaraq, vaxtaşırı beynəlxalq hüququn üç prinsipini - ərazi bütövlüyü, güclə hədələməmək və öz müqəddəratını təyinetmə məsələlərini qabartması ilə şübhəsiz ki, problem yoluna qoyulmayacaq - necə ki qoyulmur.

Rəsmi Bakı haqlı olaraq belə şablon yanaşmanın, səmərəsiz danışıqların və nəticəsiz görüşlərin əleyhinədir və yeni həll formatları axtarmaqda da haqlıdır. Odur ki, mövcud şərtlər fonunda Azərbaycan və Ermənistan prezidentlərinin növbəti təmasına nail olmaq qat-qat çətin olacaq.

***

Münaqişənin hələ bir müddət də həll olunmamış qalacağına son olaraq Rusiya prezidentinin köməkçisi Dmitri Peskovun Putin-Sərkisyan görüşü barədə verdiyi açıqlama şübhə yeri saxlamadı. Peskov bildirmişdi ki, "Rusiya münaqişə tərəflərinin əvəzinə konflikti həll etməyəcək". Halbuki hamı bilir ki, problemin dinc həll açarı elə Rusiyanın özündədir. Çünki Ermənistan Kremlin girovluğunda qaldıqca məsələdə heç bir söz sahibliyinə malik olmayacaq. Deməli, işğalçı ölkənin Azərbaycan və Türkiyə tərəfindən izolyasiyası da davam edəcək.



Bu izolyasiyanın ağır nəticələrini erməni toplumu öz üzərində getdikcə daha qabaraq hiss eləməkdədir. Hətta İran kimi bir tərəfdaş ölkə iqtisadi əlaqələrdə əlverişiz Ermənistana deyil, Azərbaycana üstünlük verməyə başlayıbsa, təcavüzkar ölkə və onun mövqeyini müdafiə edən erməni ictimai-siyasi kəsim ciddi götür-qoy etməlidir.

Təsadüfi deyil ki, sosial-iqtisadi durumu ağır olan ermənilər çıxış yolu kimi elə Türkiyəyə üz tutmağı seçirlər - həm də ağla gələn və gəlməyən yollarla. Belə ki, erməni mətbuatı və sosial şəbəkələrində yayılan statistik göstəricilərə görə, hakimiyyətdəki "Qarabağ klanı"nın zülmündən yaxa qurtarmağa çalışan sadə ermənilər indi Rusiyada yox, ən çox Türkiyədə məskunlaşmağa cəhd edirlər.

Bu barədə Regional Sabitlik və Təhlükəsizlik Mərkəzinin yaydığı məlumatda son 3-4 ay ərzində Türkiyəyə gedən ermənilərin sayının artdığı bildirilir. Hərgah, bəzi ekspertlər Türkiyədə baş verən terror hadisələrinin fonunda ölkəyə erməni axınının heç də sosial-iqtisadi vəziyyətlə bağlı olmadığı, PKK-ya dəstək vermək və ya kəşfiyyat işi görmək istəyənlərin hesabına artdığı qənaətindədirlər. Hər necə olmasa da, Türkiyə hüquq-mühafizə orqanlarının "erməni ovu"na başlaması barədə bəzi xarici informasiya saytlarında məlumatlar gündəmə gəlir. Xəbərlərə görə, Türkiyə bu səbəbdən sərhəd-keçid məntəqələrində nəzarəti gücləndirib və bir çox Ermənistan vətəndaşı geri qaytarılıb.

Türkiyənin vətənpərvər jurnalistlərindən ibarət bir qrupun apardığı araşdırmalara görə, Türkiyə sərhədini keçə bilməyən ermənilər qonşu Gürcüstana üz tutur və orada qeyri-leqal yollarla 400-500 dollar məbləğində pul xərcləyərək Gürcüstan pasportu əldə edirlər. Daha sonra bu pasportlarla və saxta adlarından istifadə edərək Türkiyə sərhədini Gürcüstan vətəndaşı kimi keçirlər. Sərhədi uğurla keçərək Türkiyə ərazisinə daxil olan həmin ermənilərin əsasən vəzifəli şəxslərin, onların yaxınlarının və dövlətlə əlaqələri iş adamlarının evlərində müəyyən işlərə düzəlməyə və onların nüfuzundan istifadə edərək öz məqsədlərinə çatmağa can atdıqları bildirilir.

***

Qeyd edək ki, bir müddət öncə Əsassız Erməni İddiaları ilə Mübarizə Dərnəyinin (ASİMDER) rəhbəri Göksəl Gülbəy Türkiyə təhlükəsizlik qüvvələrinin PKK-ya qarşı həyata keçirdiyi əməliyyatlar nəticəsində terrorçuların öz təlim bazalarını Ermənistanın işğalı altında olan və nəzarətsiz qalan Dağlıq Qarabağ ərazisinə köçürmək niyyətində olduğunu açıqlamışdı. Ekspertlər hesab edirlər ki, daim ASALA, ARABO kimi terrorçu təşkilatlara qucaq açan separatçı rejim bu dəfə də PKK yaraqlılarını müdafiə edir, onların sıralarını öz vətəndaşları hesabına artırır və müxtəlif üsullarla Türkiyəyə göndərilməsini təmin edir.

Ancaq o da faktdır ki, Ermənistan vətəndaşları Türkiyəyə əsasən qazanc dalınca gedirlər. Prezident Rəcəb Tayyib Ərdoğan da hələ illər öncə bildirmişdi ki, qardaş ölkədə yüz minlərlə Ermənistan ermənisi var və onlar öz ailələrini oradan göndərdikləri pul hesabına saxlayırlar. Ərdoğan onların hamısını deportasiya edilə biləcəyini söyləmiş, lakin insanlıq naminə Ankaranın buna getmək istəmədiyini vurğulamışdı.

Ermənistandan əhalinin köçünü sürətləndirən amillərdən biri də cəbhədə canlı (hərbi) itkilərin artmasıdır. Rəsmi qurumlar həqiqəti ört-basdır etməyə çalışsa da, müstəqil mənbələrə görə, ötən il bu göstərici rekorda həddə olub və 2016-cı ildə də eyni vəziyyət davam etməkdədir.



# Baş nazir işğalçı Ermənistanı suçladı və rəqəmlər açıqladı

## "Ötən il ordumuza 3,3 milyard manat xərclənib..."

**"Ermənistan tərəfi vaxtı uzadaraq Dağlıq Qarabağ probleminin həllindən yayınır, beynəlxalq qurumlar isə ədalətsiz mövqe tutur". Bunu Azərbaycanın baş naziri Artur Rasi-Zadə 2015-ci ildə fəaliyyəti üzrə parlamentə hesabat təqdim edərkən deyib.**

Baş nazir bildirib ki, bütün bunlar nəzərə alınaraq, ötən il ordunun döyüş qabiliyyətinin daha da artırılması istiqamətində ciddi işlər görülüb: "Son zamanlar işğalçı tərəfin təxribat xarakterli hücumlarına verilən layiqli cavablar da bunu bir daha sübut edir".

Rasi-Zadə bildirib ki, ötən il 1500 zabit mənzillə təmin edilib, Silahlı Qüvvələrə Yardım Fonduna müxtəlif mənbələrdən 70 milyon manatdan çox vəsait daxil olub. Onu da qeyd edib ki, ötən il ümumilikdə Silahlı Qüvvələrə 3,3 milyard manat vəsait xərclənib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 60 (6381) 16 mart 2016

# Azərbaycan terrordan necə qorunur?

**Ankara terroru bir daha dünyanın heç bir ölkəsinin, heç bir şəhərinin terrordan sığortalanmadığını göstərdi. Artıq insanlar ictimai yerlərdə bu cür hadisələrin baş verəbiləcəyindən narahatdırlar. Regiondakı hazırki həssas məqamda Azərbaycanın sabitliyinin pozulmasını istəyən güclər də az deyil. Xüsusən Ərdoğanın Azərbaycana səfərinin baş tutacağı ərəfədə bu hadisənin baş verməsi, bunun ardından prezident İlham Əliyevin qardaş ölkəyə səfəri Azərbaycanın da hədəfə çevrilməsinə səbəb ola bilər.**

## İlham İsmayıl: "Əgər əhalinin kütləvi toplaşdığı hər yeri xüsusi nəzarətə alsaq, o zaman əhalinin özündə də bir xof yaranar"

Novruz bayramı ilə əlaqədar ictimai yerlərdə əhalinin sıxlığının yaşanmasını, şəhərdə bayram tədbirlərində minlərlə sakinin iştirak edəcəyini nəzərə alsaq, təhlükəsizliyin necə təmin olunması çox önəmlidir. Bəs görəsən, belə həssas məqamda hüquq-mühafizə orqanları hansı tədbirlər həyata keçirir? Ölkənin terrordan qorunması üçün xüsusi avadanlıqları yetərlidirmi?

**Təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayıl bildirdi ki, bu məsələlər daha çox polisin fəaliyyətinə daxildir:** "Terror elə bir məsələdir ki, Azərbaycanda da daim narahatçılıq var. Yeni Azərbaycan da həmişə hədəfdə olub. Sadəcə olaraq, Türkiyə daha qaynar nöqtədir. Biz də Türkiyəyə qardaş ölkəyik və mümkündür ki, təzyiq üçün bizdə də buna cəhd etsinlər. Azərbaycan prezidentinin Türkiyəyə səfərindən və dövlət başçılarının görüşündən sonra bu ehtimal daha da artır. Aydın məsələdir ki, ölkənin xüsusi xidmət orqanları var. Asayişi qoruyan Daxili İşlər Nazirliyi var. Təbii ki, hansısa tədbirlər görürlər. Dünyanın heç bir ölkəsi terrordan sığortalanmadığı kimi biz də sığortalanmamışıq. Ayıq-sayıqlığımız bu gün də olmalıdır. Sərhəddən başlayaraq, hər yerdə təhlükəsizlik tədbirləri görmək, şübhəli şəxsləri, terror törədə biləcək potensial şəxsləri nəzarətdə saxlamaq lazımdır ki, terror baş verməsin".

**Ekspertin sözlərinə görə, Bakı aeroportunda xüsusi cihazlar var ki, ölkəyə daxil olan şəxslərin üzərində partlayıcı maddə və cinayətdə istifadə oluna biləcək hər hansı əşya varsa, aşkarlayır:** "Lakin bu cihazların metroya qoyulması mümkün deyil. Çünki o qədər insan axını qarşısında bu cihazlar davam gətirə bilməz. Bu səbəbdən metroları polis işçiləri qoruyur, şübhəli bildikləri şəxslərin üzərini araşdırırlar. Əgər əhalinin kütləvi toplaşdığı hər yeri xüsusi nəzarətə alsaq, o zaman əhalinin özündə də bir xof yaranar. Ona görə də elə etmək lazımdır ki, terrorçu ölkəyə girə bilməsin".

**Politoloq Ərəstun Oruclu dedi ki, son illərdə şəhərdə müşahidə kameraları ilə nəzarət intensivləşdirilib, şəhər kifayət qədər qorunur:** "Amma bu tədbirlər terrordan yayınmaq üçün kifayət eləmir. Ən müasir ölkələrdə belə bu imkanlar var, lakin istənilən məqamda terror hadisəsi baş verir. Məncə, terrordan qorunmağın yolu çevik siyasət işlətmək və terror sifarişçilərinin hədəfinə gəlməməkdir. Bugünkü terrorçuların heç biri özbaşına bu addımı atmır. Onların hər biri hansısa təşkilatların əlində alətdir. Bu baxımdan yalnız çevik siyasət daha çox terrordan qorunmağa imkan verir.

Bütün texniki vasitələr terrordan qorunmaq üçün önəmlidir. Ancaq həlledici məsələ terroru sifariş edən beynəlxalq güclərin hədəfinə gəlməməkdir".

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov isə "Yeni Müsavat"a açıqlamasında Novruz bayramı ilə əlaqədar şəhərdə keçirilən tədbirlərin xüsusi mühafizə ilə təmin olunduğunu və polisin gücləndirilmiş iş rejiminə keçdiyini bildirib:** "Bununla bağlı daxili işlər naziri, general-polkovnik Ramil Usubov müvafiq əmr imzalayıb. Əmrə əsasən, respublikada keçiriləcək Novruz bayramı şənlikləri zamanı ictimai asayişin, qanunçuluğun və hüquq qaydasının qorunmasının, xidməti vəzifələrin yüksək səviyyədə və daha mütəşəkkil icrasının təmin edilməsi məqsədi ilə mart ayının 19-dan 28-dək DİN-in bilavasitə tabe qurumlarının, ərazi polis orqanlarının və nizami polis hissələrinin şəxsi heyəti gücləndirilmiş iş rejiminə keçiriləcək.

Əmrdə həmçinin bildirilir ki, bayram ərəfəsi və bayram günlərində ictimai yerlərdə və küçələrdə post patrul naryadlarının sıxlığı artırılacaq, həyat təminatlı mühüm əhəmiyyətli obyektlərin, o cümlədən xarici ölkələrin diplomatik nümayəndəliklərinin mühafizəsi ciddi nəzarətdə saxlanacaq".



**Ehsan Zahidov:** "Martın 19-dan 28-dək polis orqanlarının və nizami polis hissələrinin şəxsi heyəti gücləndirilmiş iş rejiminə keçiriləcək"

**Metropolitenin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Bakı metropolitenində insanların təhlükəsizliyi tam şəkildə təmin olunur: "Bizim metronun hər bir nöqtəsində müşahidə kameralarımız var. Metronun təhlükəsizliyi ilə sırf polis əməkdaşları məşğul olur. Onlar "Bakı Metropoliteni"nə tabe deyil. Giriş-çıxışların hamısında Daxili İşlər Nazirliyinin tabeliyində olan polis əməkdaşları məşğul olur.

Bu səbəbdən Daxili İşlər Nazirliyi təhlükəsizlik tədbirləri ilə bağlı suala daha dəqiq cavab verə bilər. Əslində terrordan heç kim sığortalanmayıb. Lakin Bakı Metropoliteni tam şəkildə qorunur, bizim xüsusi qurğularımız da var, mən bu haqda tam açıq danışmaq istəmirəm. Ümumiyyətlə narahat olmağa əsas yoxdur. Mən çox ölkələrin metrosunu gəzmişəm. Orada nəinki təhlükəsizlik aparatlarına, heç polis əməkdaşlarına da rast gəlməmişəm. Bizdə partlayıcı maddələri aşkarlamaq üçün xüsusi avadanlıqlar var. Mən bunun detallarını açıqlamaq istəmirəm. Əsas iş dediyim kimi, polisin üzərindədir".

❑ Nərgiz LİFTİYEVA

# Gizli dinləmə qurğuları- "böcək"lər haqda bilmədiklərimiz

## Bir kilometrdən minlərlə kilometr aralı məsafədən dinlənmə qurğularının iş prinsipləri demək olar ki, eynidir

**Müğənni İlhamə Quliyevanın qəfil ölümündən əvvəl yaşadığı mənzildə dinləmə qurğusu axtarışları apartdırması haqda yazmışdıq. Bu mövzunun geniş müzakirələrə səbəb olması həm də gizli dinləmə qurğularına cəmiyyətdə olan maraqdan qaynaqlanır.**

İctimai-siyasi sektorun üst düzəyində olan şəxslərin əksəriyyəti dinləmə qurğularının onun yaşayış, iş yerinə yerləşdirilməsi paranoyasını yaşayırlar. Bu səbəbdən müxtəlif məkanlarda danışıqlarını pıçıltı ilə aparmağa üstünlük verirlər.

Belə qurğuların hansı növləri var və onları necə müəyyən etmək olar?

Bu məsələ ilə bağlı internet resurslarında kifayət qədər məlumatlar var. Rusiyada belə qurğuları əldə etmək istəyənlər üçün saytlar da fəaliyyət göstərir. Məsələn, spytome.net (http://www.spytome.net/audio.html?p=1) saytında belə qurğuları sifariş etmək olar. Bir kilometrdən minlərlə kilometr aralı məsafədən dinlənmə qurğularının iş prinsipləri demək olar ki, eynidir. "Böcək"lərin iş prinsipi mobil telefonların iş prinsipindən elə də fərqlənmir. "Böcək"ə sim-kart yerləşdirilir və "böcək" lazımi obyektə qoyulur. Günün istənilən saatında "böcəyə" zəng etməklə obyekti dinləmək imkanı qazanılır. Texniki xarakteristikalarına görə müxtəlif olan belə dinləmə "böcək"lərinin əsas funksiyası nəzərdə tutulan



obyektin dinlənilməsini təmin etməkdir. Kibrit qutusu və ondan qat-qat kiçik ölçülərə malik belə qurğular sırasında kompüter üçün nəzərdə tutulan "siçan" da var. Həmin "siçan" kompüterdə müəyyən əməliyyatları daha rahat şəkildə həyata keçirmək üçün istifadə edilən qurğu funksiyasından başqa, həm də obyekti dinləməyə imkan verir. Yetər ki, həmin "siçan" dinlənilməsi nəzərdə tutulan obyektə hədiyyə edilsin və ya onu belə bir qurğunun alınmasına təhrik edən ortam yaradılsın. Obyekt belə bir qurğunu kompüterə qoşmaqla özü də bilmədən rahat şəkildə dinlənilməsini təmin etmiş olur. Belə "böçək"lərin zəif yeri əsasən enerji ilə qidalanması problemidir. Lakin "böçəyin" "siçan" şəklində kompüterə qoşulması bu problemi aradan qaldırır. Kompüterin USB portu sabit qidalanmanı və müvafiq olaraq fasiləsiz dinləməni təmin edir. Məişətdə istifadə edilən ən müxtəlif elektrik cihazları, məsələn, ütü, modem, ev telefonları və digər cihazlar da asanlıqla dinləmə qurğularının "yuva"sına çevrilə bilərlər. İnteryerdəki istənilən element də - stol, stul, mebel, divan, kreslo da həmin asanlıqla dinləmə qurğularının yerləşdirilməsinə imkan verir.

Dinləmə qurğularının başqa növləri də var. Məsələn, 15-20 mm-lik divarın əks tərəfində baş verənləri eşitməyə imkan verən qurğular da var. Belə qurğular divarın əks tərəfindəki 10 metrlik məsafədə nələrdən danışıldığını dinləməyə və qeydə almağa imkan yaradır.

Bəs "böcək"lərdən qorunmağın yolları varmı?

Necə deyərlər, dərd varsa, dərmanı da var! Dinləmə qurğularını aşkarlayan, onların normal işləməsinə manee yaradan qurğular da var. Rusiyada "böcək"ləri müəyyən etmək üzrə ixtisaslaşmış xüsusi şirkətlər də fəaliyyət göstərir (http://economic-security.ru/zaschita-informacii/15-proverka-pomescheniya-stoimost-uslug.html). Bu profilli mütəxəssislər bahalı avadanlıqlarla sifarişçinin ofisinə, evinə gəlir, müvafiq yoxlama aparmaqla "böcək"ləri müəyyən edirlər.

Azərbaycanda "böcək"lər qadağan olunduğundan belə dinləmə qurğularını axtaran şirkətlər də rəsmi fəaliyyət göstərmirlər. Müğənni İlhamə Quliyevanın ölümündən əvvəl evinə dəvət etdiyi mütəxəssislərin də bu sahənin biliciləri olub-olmaması sual olaraq qalmaqdadır.

❑ E.HÜSEYNOV





# Dünyanın qorxulu röyası - canlı bombalar...

## Onları necə seçirlər, hansı üsulla hazırlayırlar və... onlar kimdir?



## Ankaranı qana boyayan Səhər Çağlanın timsalında kamikadzelər barədə bilmədiyimiz hər şey....

**Ankarada baş verən terror aktını törətməkdə ittiham olunan Balıkəsir Universitetinin tələbəsi Səhər Çağla Dəmirin şok görüntüləri yayımlanıb. Məlum olub ki, gənc qız 2013-cü ildə Ankarada təşkil olunan 1 may bayramı tədbirlərində iştirak edib və İstiqlal marşı ifa olunan zaman etdiyi hərəkətlərlə diqqət mərkəzinə düşüb. Məlumatlara görə, S.Ç.Dəmir marş zamanı telefonla məşğul olub və mediada tənqid hədəfi olub. Səhər Çağlanın timsalında isə yenidən "canlı bomba" mövzusu gündəmə gəlib. Məlumdur ki, bu günə qədər baş tutan terror aktlarının əksəriyyətində bu taktikadan istifadə olunub. Hətta başda Türkiyə olmaqla, dünya kinematoqrafiyasında bu tiplərlə bağlı çoxlu sayda filmlər çəkilib. Onların həyat yolu, psixologiyası, terror təşkilatında aldıqları təlimatlar və buna uyğun davranış xətləri...**

"Yeni Müsavat" isə dünyanı lərzəyə gətirən bu şəxslərin psixologiyası, düşdükləri yol, prinsipləri barədə bir gəzişmə edib. Ortaya maraqlı detallar, psixoloji analizlər çıxıb.

### Terror təşkilatlarının "canlı bomba sevgisi"nin arxasında nə dayanır?

Öncə ondan başlayaq ki, terror təşkilatlarının bədəninə bomba bağlamış insanlardan - canlı bombalardan istifadə etmələrinin xüsusi səbəbi var. Belə ki, onlar hər hansı bir nizamlı bombadan daha təsirlidirlər. Mütəxəssislər deyirlər ki, nizamlı bir bomba cəmiyyətdə cəmi 2 saat psixoloji təsirə malik olduğu halda, bir insanın bədəninin minlərlə parçaya ayrılması daha təsirli və qorxuducudur. Bundan başqa, terror aktlarının canlı bomba vasitəsilə icra edilməsi digər hücumlarla müqayisədə daha rahat planlaşdırıla bilir, son ana qədər nəzarətdə saxlana bildiyi üçün daha təsirli və nəticəli olur. Terrorist arxasında işə yarayan heç bir iz qoymur, ona yardım edən insanlar haqqında məlumat verə bilmir. Hamısından daha önəmlisi isə bu cür aksiyaların ən çətin hissəsi olan "qaçış" üçün hər hansı qayğının olmamasıdır.

İntihar hücumu bir şəxsin üzərində daşıdığı partlayıcılardan istifadə edərək, özünü öldürməsi və ətrafına ziyan verməsidir. Bu hərəkəti edən şəxsə "canlı bomba" və ya "intihar bombaçısı" deyirlər. Tarixdə ilk intihar hücumları Yaponiyada baş verib. Yaponlar müharibələr zamanı kamikadzelərdən istifadə ediblər. 1980-ci illərdən etibarən isə bu sayaq intihar aksiyaları silahlı, terror təşkilatları tərəfindən sistemli olaraq həyata keçirilib. Aksiyanı həyata keçirən şəxs orada özünü öldürmədiyi halda, aksiyanın uğursuz olacağının fərqindədir. Bu səbəbdən də onun ölməsi intihar aksiyasının birinci şərtidir. Müasir terror təşkilatları son çıxış yolu olaraq bu aksiyanı düzənləyir və cəmiyyətdə səs-küy, qorxu atmosferi yaratmaq məqsədi güdürlər.

### Hansı tip insanlara üstünlük verilir?

Təl-Əviv Universitetinin israilli professoru Ariel Merari 50-dən artıq canlı bomba barədə sosial araşdırma aparıb. Araşdırmada nə ortaq bir xarakter, nə də patoloji bir şəxsiyyət özəlliyi üzə çıxarılıb. Amma bütün bu qatillərdə ən önəmli oxşarlıq onların heç diqqət cəlb etməmələri olub.

Ağıla gələn sual isə "onlar da sizin, bizim kimi insanlardırmı"dır. Xarici görünüş etibarilə elədir. Amma onların ortaq psixoloji durumu var: "Narsist" bir ruh halı, "uc nöqtələrdə yaşamağı sevməsi", intihar öncəsi sindroma düşmələri...

Terror təşkilatları qurbanları seçən zaman sentimental, spontan qərarlar verməyi sevən, təsir altına düşən tiplərə üstünlük verirlər. Bundan başqa, onların cəmiyyətdə özlərinə yer tapa bilməyən tiplər olması arzuediləndir. Aksiyaçıların içində özünü fəda etmə, bir qəhrəman olma duyğusu ön plana çıxa bilir. Bundan başqa, ciddi şəkildə sosial təzyiqi də yaddan çıxarmaq olmaz. Təzyiqin ana xətti aşağıdakı kimidir: **"Bunu həyata keçirmədiyin zaman qrupun içində hörmət görən bir insan kimi yaşama şansın yoxdur".**

### Onları inandırırlar - o biri dünyada ən böyük mükafat sənindir, bu dünyada da tarixə düşəcəksən...

Maraqlıdır, milyonlarla gənc insan eyni depressiv atmosferdə yaşadığı halda, niyə onlardan bəziləri intihar komandosu olmağa qərar verir? Canlı bomba halına gələnə qədər nələrdən təsirlənir və hansı psixoloji təzyiqi hiss edirlər?

İntihar terrorizminin altında "şəhid olma" inancı dayanır. Başqa sözlə, bunu hisslərin pis əməllər uğruna sömürüməsi də adlandırmaq mümkündür. Adət-ənənələrlə yetişən dindar insanlar o biri dünya ilə bağlı vədlərə daha asan inanırlar. İnancları bu: **"Ən böyük mükafat onların olacaq, həm cənnətdə, həm də öldükdən sonra Yer üzündə, qəhrəman mərtəbəsinə yüksələcək, ölümsüz olacaqlar"...**

Terror aksiyasından öncə canlı bombaların motivasiya olmaları üçün narsist yaraların deşirlər, varlıqlarının təhlükə altında olduğu təkrar-təkrar vurğulanır. Bununla da daxillərində şiddətli bir hücumçu potensialı yaradılır. Sözügedən şəxslərin şüuraltına isə bu fikir yeridilir: **"Sən bu aksiyanı həyata keçirməsən, burada da insan kimi hörmət görməyəcəksən. Amma bunu həyata keçirsən, həm qrup adına hərəkət edirsən, həm də özünü qəhrəman kimi tarixə salacaqsan".**

Beyinyuma texnikasına "düşünməni dayandırma ritualı" da daxildir. Onlar qrup halında bir araya gəlib, toplu andlar içir, yaxşı və ya pis olmasından asılı olmayaraq bəzi sözləri xor halında saatlarla odlu-alovlu şəkildə təkrarlayırlar. Bu tədbirləri tez-tez təkrarlamaqla düşünmə qabiliyyətini də aşağı salırlar. Fərddə ən kiçik bir tərəddüd gördükləri zaman qrup mənəvi təzyiq tətbiq edir, "hamımız birimiz, birimiz hamımız üçün" janrında nitqlər söyləyirlər. Bununla da həmin şəxsin utanması və özünü günahkar hiss etməsi təmin olunur. Sonda da şəxs "qorxaq" damğasını yeməkdənsə ölümü tərcih edir. Qrupdakılara hər şeyi ancaq ağ-qara görən yalançı bir şəxsiyyət yüklənir. Artıq onların həyatındakı hər şey, sadəcə, inananlar və inanmayanlar, insan və insan olmayanlar, hər şey və ya heç bir şeydən ibarətdir. Problemləri həll etmənin bir yolu var: intihar hücumu ilə düşmənin yox edilməsi!

### Hazırlıq prosesi - çuxurda bir cəsədlə 48 saat keçirmək

Aksiyaçıların seçilmə prosesi zamanı haqqında danışdığımız cəhətlər müəyyənləşdirilir və sonra onu inkişaf etdirirlər. Bu şəxslər həmçinin cəsarət və dözümlülüklə bağlı müvafiq testlərdən də keçirilirlər. Bunların arasında beyinyumanı xatırladan bəzi aksiyalar da keçirilir. Bunların sırasında boş bir otaqda günlərlə səssiz bir şəkildə oturmaq və ya yerin altında qazılan çuxurda bir cəsədlə birlikdə 48 saat keçirmək...

Qadınların yüzdə 40, kişilərin isə yüzdə 60-a yaxını belə aksiyalarda iştirak edir. Şərq cəmiyyətlərində bu yolu seçənlər daha çox mühafizəkar mühitdən təsirlənir, dini motivli təşkilatları seçirlər. Qərbdəki bənzər şərtlər altındakı gənclər isə narkotik maddə asılılığı ilə özlərini ifadə edirlər. Dini motivli təşkilatlarda canlı bomba aktivisti üçün şəhidlik xətti ön plana çıxır, solçu təşkilatlarda isə daha çox qəhrəmanlıq fikri vurğulanır. Beləliklə, intihar hərəkətini gənclər üçün daha asan hala gətirirlər. Aktivistlərin haqqında mahnılar bəstələnir, şeirlər yazılır və fotoşəkilləri divarlara asılır. Hərəkətin hazırlıq müddətindəki bütün "ülvi səbəblər" bu şəxsləri canlı bomba edən yolda təsirli olur.

Aksiyadan öncəki son hazırlıqlar da yolunda gedirsə, psixiatristlərin təbirincə desək, intihar öncəsi sindrom aktivləşir, aksiyaçıda ciddi bir qətiyyət müşahidə olunmağa başlayır. Eynən fırtına öncəsi səssizlik kimi, insan böyük bir daxili hüzura qovuşur, soyuqqanlı, pozitiv davranır. Vida məktubu yazır, dostları ilə əylənməyə gedir, yeyib-içir, video oyunları oynayır Və son mərhələyə yaxınlaşır: ölmək və öldürmək...

❑ **Sevinc TELMANQIZI**



# İŞİD-in tərkibində döyüşmüş azərbaycanlının məhkəməsi başlayır

**Bakı Ağır Cinayətlər Məhkəməsində Suriyada İŞİD terror təşkilatının sıralarında döyüşməkdə təqsirli bilinən 24 yaşlı Bakı sakini Şirxan Xasaylının cinayət işi üzrə məhkəmənin hazırlıq iclası başlayıb.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Cavid Hüseynov sədrlik edib. Posesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Məhkəmənin baxış iclası martın 29-na təyin edilib.

Qeyd edək ki, ötən il Milli Təhlükəsizlik Nazirliyinin (MTN) yaydığı məlumata görə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə, həmçinin terrorçuluq, yəni dövlət hakimiyyəti orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə, Azərbaycan Respublikası vətəndaşları və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri dini məzhəbləri yaymaq, dini ayinlərin icrası adı altında, dini düşmənçilik zəminində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma, eləcə də həmin qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə və digər hüquqazidd əməllərinin törədilməsinə görə Azərbaycan Respublikasının vətəndaşı Şirvan Xasaylı şübhəli şəxs qismində tutulub. Faktlarla bağlı MTN İstintaq Baş İdarəsi tərəfindən Cinayət Məcəlləsinin 12.1,279.1-ci, 12.3,28,214.2.1, 12.3,28,214.2.3 və 12.1,218.2-ci və 283-1.3-cü maddələri ilə cinayət işləri başlanıb. Onlardan Mikayılov Rövşən Baba oğlu barəsində istintaq tamamlanaraq Lənkəran Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Həmin məhkəmənin 25 avqust 2015-ci il tarixli hökmü ilə Rövşən Mikayılov ittiham olunduğu cinayətlərdə təqsirli bilinərək 13 il azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.

Müəyyən edilib ki, Şirxan Xasaylı 2013-2015-ci illər ərzində müxtəlif vaxtlarda Suriya Ərəb Respublikasının və İraq Respublikasının ərazisində həmin dövlətlərin, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan ayrı-ayrı silahlı birləşmələrin, o cümlədən İŞİD terror təşkilatının fəaliyyətində iştirak edib.

# 18 neftçidən 103 gündür xəbər yoxdur

## Axtarışların dayandırılması ailələri narazı salıb



**2015-ci il dekabr ayının 4-də SOCAR-ın "Günəşli" yatağının 10-cu dərin dəniz özülündə baş verən dəhşətli qəzadan 103 gün keçir. Geridə qalan 3 aydan artıq bir müddətdə itkin düşən 18 neftçidən hələ də xəbər yoxdur.**

Xatırladaq ki, "Günəşli" yatağındakı qəza zamanı 33 nəfər xilas edilmişdi. 1 nəfər neftçinin cəsədi tapılmışdı. 29 nəfər isə itkin düşmüşdü. Daha sonra itkin düşən neftçilərdən 11-i tapılaraq ailəsinə təhvil verilmişdi. Eyni gündə Neft Daşlarında baş verən qəza zamanı itkin düşən 3 neftçidən birinin meyiti tapılsa da digərlərindən də hələ ki xəbər yoxdur.

Musavat.com-un əldə etdiyi məlumata görə, axtarış işləri bir müddətdir ki, dayandırılıb. Tapılan sonuncu cəsədlər isə Türkmənistan sahillərində dənizçilər tərəfindən aşkarlanmışdı.

İtkin düşən neftçilərin ailələrinə baş nazir Artur Rasi-Zadənin sərəncamı ilə 15 min manat birdəfəlik maddi yardım ödənilib. Birdəfəlik yardım itkin düşən və dünyasını dəyişən bütün neftçilərin ailələrinə verilib.

Neftçilərin Hüquqlarının Müdafiəsi Təşkilatının sədri Mirvari Qəhrəmanlı musavat.com-a açıqlamasında bildirdi ki, cəsədləri tapılan ailələrə sığorta ödənişlərinin edilməsi ilə bağlı hələ ki heç bir şikayət yoxdur və yanvar ayının sonundan ailələr həmin məbləği almağa başlayıblar.

Təşkilat rəhbəri digər itkin düşənlərin 6 aydan sonra ölmüş hesab ediləcəklərini və bundan sonra onlara sığorta ödənişlərinin veriləcəyini bildirdi.

**M.Qəhrəmanlı dünyasını dəyişən neftçilərin ailə üzvlərinin narazılıqlarının olduğunu da qeyd etdi:** "Biz də müraciət etmişik ki, evi olmayan itkin düşmüş neftçilərin ailəsinə mənzil verilsin. Ödənilən sığorta pulu ilə ev almasınlar. Bu çox ciddi məsələdir. Ölən neftçiləri medal və ya ordenlə də təltif etmək olardı. Onlar qəhrəmancasına dünyalarını dəyişdilər. Bunu həmin neftçilərin də ailəsi istəyirdi. Bu böyük mükafat deyildi. Həmin hadisəni xatırlamaq, neftçilərin ailəsinə böyük hörmət olardı. Digər bir narazılıq axtarışların dayandırılması ilə bağlıdır. İtkin düşən neftçilərin ailələri bizə müraciət edib narazılıqlarını bildirirlər. FHN isə axtarışın davam etdiyini deyir. Mən isə deyirəm ki, axtarışlar dayandırılıb. Ötən ilin dekabrında və yanvarın əvvəllərində axtarışlar oldu. Ancaq sonradan dayandırıldı. Tapılan cəsədlər isə Türkmənistan sahillərində idi".

**Axtarışların dayandırılmasının qanunsuz olduğunu deyən təşkilat rəhbəri buna etiraz edir:** "Qanunu xatırlatmaq istəyirəm ki, itkin düşmüş neftçilərin axtarışı 6 ay müddətində davam etdirilməli idi. Qətiyyən axtarışı dayandırmaq olmaz. Yalnız 6 aydan sonra onlar ölmüş hesab oluna bilər. Hələ də ümidini itirməyən insanlar var. Təsəvvür edin ki, yaxınlarını itiriblər, amma ortada bir məzarları belə yoxdur. Bəziləri ilə danışırıq. İnsan yaxınının, əzizinin dənizdə itkin düşdüyünü, qurda-quşa yem olduğunu düşünməsi bilirsinizmi necə çətindir? Bu ailələrə daim mənəvi dəstək olmaq lazımdır. Birdəfəlik maddi yardım ayırmaqla iş bitmir. İnsanlar ömürlük ailə başçısından məhrum olublar. Neft şirkəti nə qədər ki, mövcuddur, bu ailələrin övladları həddi buluğa çatana qədər diqqətdə saxlanılmalıdır. Onları işlə təmin etmək lazımdır".

❑ İ.MURADOV

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Həsənov Elmi Məhər oğluna məxsus "Elin MMC"-yə aid VÖEN (2002752711) itdiyi üçün etibarsız sayılır.**

***

**Kərimov Tofiq Rəhim oğlunun adına olan qaçqın vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

***

**Şabran rayonu Günəşli kəndində yerləşən Nəbiyev Şərafəddin Əbülfəz oğlunun adına olan fərdi yaşayış evinə Şabran rayon Tİ və MHQ İdarəsi tərəfindən 146 reyestr nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**



# Nardaranda Bilik Evi açıldı

## Qəsəbənin abadlaşdırılması davam edir

**Nardaran qəsəbəsində abadlıq və quruculuq işləri davam etdirilir. Qəsəbəyə aparan yolların genişləndirilməsi, kommunikasiya xətlərinin yenilənməsi işləri artıq yekunlaşmaq üzrədir.**

Musavat.com-un məlumatına görə, Nardaranın mərkəzi sayılan, keçmiş İmam Hüseyn meydanına aparan Abşeron küçəsi əsaslı şəkildə təmir olunub. Yolun hər iki tərəfi genişləndirilib, asfalt örtüyü dəyişdirilib, işıq dirəkləri və kanalizasiya sistemi yenilənib, yol kənarları hasarlanıb.

Nardaran qəsəbəsində aparılan təmir-tikinti işləri növbəti ayda başa çatacaq.

Xatırladaq ki, prezident İlham Əliyev Bakının Nardaran qəsəbəsinin abadlaşdırılması, qəsəbədəki sosial - mədəni infrastrukturun yenilənməsi, qəsəbənin sosial problemlərinin həlli məqsədilə 12 milyon manat məbləğində vəsait ayırmışdı. Daha sonra isə Nardaran qəsəbəsinin daxili avtomobil yollarında yenidənqurma işlərinin davam etdirilməsi üçün əlavə olaraq 17.4 milyon manat vəsait ayrılıb.

Qəsəbədə ötən ilin dekabr ayının 1-dən Daxili Qoşunlar və polis tərəfindən yaradılan nəzarət postları götürülüb.

Qəsəbə sakinlərinin musavat.com-a verdiyi məlumata görə, kəndin mərkəzində Daxili Qoşunların bir neçə əsgəri növbə çəkir. Kəndin 189 nömrəli marşrut avtobusunun hərəkətində heç bir problem yoxdur. Abşeron küçəsində təmir işləri başa çatdıqdan sonra avtobuslar xətt üzrə hərəkətini davam etdirir.

Martın 15-də isə Nardaran qəsəbəsində Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Nardaran Bilik Evinin açılış mərasimi olub.

"Azərfaks"a verilən məlumata görə, mərasimdə millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri, akademik Kamal Abdullayev, Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev, 295 nömrəli tam orta məktəbin direktoru, millət vəkili Dilarə Cəbrayılova, 130 nömrəli tam orta məktəbin direktoru Ağasəid Orucov, Bilik Fondunun icraçı direktoru Oktay Səmədov, Nəsimi adına Dilçilik İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Möhsün Nağısoylu, Nardaran qəsəbə Rəhiməxanım pirinin axundu Hacı Musa Rza, fondun əməkdaşları, Nardaran qəsəbə rəsmiləri, yerli ziyalılar və məktəblilər iştirak ediblər...

Xatırladaq ki, ötən il noyabrın 26-da polislə silahlı qarşıdurmada 4 dindar öldürülmüşdü. 2 polis əməkdaşı da həlak olmuşdu. Müsəlman Hərəkatı Birliyinin sədri Tale Bağırzadə və bir neçə dindar həbs edilmişdi. Bundan sonra kənd sakinləri noyabr ayının sonunadək kənddə aksiyalar keçirmiş, kəndə girişlərdə barrikadalar qurmuşdular. Daxili Qoşunların və polisin keçirdiyi əməliyyatdan sonra Nardaran dekabr ayının birindən nəzarətdədir. Hadisələrdə iştirak edən onlarla kənd sakini həbs edilib.

❑ İ.MURADOV

**Elan**

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**

**e-mail: travelaz2016@gmai.com**

**whatsapp: +1 845 300 7030**

**Tel: +99451 635 2408**

YENİ MÜSAVAT
N 60 (6381) 16 mart 2016

# Dollar kreditləri- banklar güzəştə getmir, əhali isə...

**Manatın məzənnəsinin gündəlik azalmaları fonunda dollar kreditləri ilə bağlı çətinlik ciddiləşir. Ekspertlər problemin kritik həddə olduğunu vurğulayırlar. Geri qaytarılmayan, problemli kreditlərin həcmi durmadan artır. Vətəndaşlar xüsusən ikinci devalvasiyadan sonra kreditləri ödəyə bilmirlər. Ekspertlər məsələni dəfələrlə ictimailəşdirsələr, təkliflər versələr də, hökumət və banklar hər hansı addım atmaq istəmir.**

## Kredit borcunun bankın daxili imkanı hesabına həll edilməsi, həmçinin dollarla kredit verən bank rəhbərlərinin məsuliyyətə cəlb edilməsi, əksər bankların bağlanması da təkliflər sırasındadır



**Məsələ ilə bağlı Dünya Bankının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Larisa Leşçenko** "Report"a bildirib ki, Azərbaycanda dollar kreditləri ilə bağlı məsuliyyət kreditləşmə prosesində iştirak edən bütün tərəflər arasında bərabər bölüşdürülməlidir. Milli valyutanın devalvasiyasının bu sahəyə yetirdiyi zərər kreditləşmənin iştirakçısı olan üç tərəf- kreditor (bank və s.), kreditalan və dövlət arasında bərabər paylanmalıdır. L.Leşçenkonun sözlərinə görə, bu prosesdə kredit götürən də mütləq qaydada məsuliyyətin bir hissəsini öz üzərinə götürməlidir. **"Çünki məzənnənin uzun müddət sabit olmasının yaratdığı əminliyə baxmayaraq, vətəndaşlar uzunmüddətli gəlir profillərinə diqqətlə yanaşmalı və mümkün riskləri nəzərə almalı idilər. Banklara gəldikdə isə, onlar son illərdə yüksək faiz dərəcələrindən faydalanıb və indi də öz müştərilərinə güzəşt etməyi nəzərdən keçirə bilərlər"** deyə, bank rəsmisi qeyd edib. Dövlətin də dollar kreditı sahiblərinə yardım etməsinin zəruriliyi Dünya Bankının Bakı ofisinin rəhbəri tərəfindən xüsusi vurğulanıb.

**Qeyd edək ki, iki gün əvvəl 11 yerli ekspert məsələ ilə bağlı dövlət başçısı İlham Əliyevə müraciət ediblər. Müraciətdə problemin ciddiliyinə diqqət çəkilir:** "Son monitorinqlər göstərir ki, kreditlərin ödənilməsi ilə bağlı ciddi çətinliklər müşahidə edilir. Dollar kreditləri manat ifadəsində 2 dəfə artıb və bu da belə kredit götürənlərin sosial vəziyyətinə də neqativ təsir göstərir. Qaldırdığımız məsələ bu gün milyonlarla vətəndaşımızın taleyi, cəmiyyətin sosial sabitliyi və dövlətin təhlükəsizliyi ilə bağlıdır. Söhbət banklar tərəfindən əhaliyə xarici valyutada verilmiş kreditlərlə bağlı yaranmış gərgin vəziyyətdir. Apardığımız araşdırmalar göstərir ki, bu kreditlərin böyük əksəriyyəti sosialyönümlü kreditlərdir və insanlar onları bir qayda olaraq məişət problemlərinin həlli məqsədilə götürüblər. Ən doğru olanı isə budur ki, kredit almaq üçün müraciət edən insanlar əksər hallarda manatla krediti almaq mümkün olmadığına görə xarici valyutada kredit götürməyə məcbur olublar. Ehtiyac içində olan vətəndaşa bir çox banklarda krediti yalnız xarici valyutada almağın mümkün olduğu deyilib və insanlar başqa çıxış yolu tapmadıqlarından məcbur olub bu təklifi qəbul ediblər. Xarici valyutada gəliri olmayan bu insanlar bir il ərzində manatın məzənnəsində baş verən kəskin ucuzlaşmadan sonra indi xarici valyutada olan bu kreditləri ödəyə bilmirlər. Buna onların manatla olan gəlirləri imkan vermir. Keçən ilin fevral ayının 21-nə qədər kredit üçün aylıq ödənişi 200 manat olan bir vətəndaş indi həmin krediti bağlamaq üçün 400 manat xərcləməlidir. Bu isə real deyil. Digər tərəfdən, yaranmış bu durum bankların da vəziyyətini getdikcə ağırlaşdırmaqdadır. Bu kreditlərin qayıtmaması bank sistemini bütövlükdə iflic vəziyyətinə sala bilər. Bəzi banklar isə yaranmış vəziyyətdən haqsızcasına istifadə edərək müştərilərə kreditlərə güzəşt tətbiq etdiklərini deyib onlara müəyyən ödənişlər etdirir və sonradan ödənilən məbləğin 2/3 hissəsini kredit faizlərinə silirlər. Bir sözlə, bu gün bu sahədə tam anlaşılmaz bir özfəaliyyət hökmranlıq edir. Bu vəziyyət sonda ölkədə sosial gərginliyin artması ilə nəticələnə bilər. Vətəndaşların dövlət qayğısına inamının möhkəmləndirilməsi, onların maraqlarının dövlət tərəfindən qeydsiz-şərtsiz təmin edilməsi üçün, fikrimizcə, dollarla kredit almış olanlara manatın məzənnəsindəki dəyişikliklər kompensasiya edilməlidir. Dövlətimizin qüdrəti və maliyyə ehtiyatları buna imkan verir. Bu cür kompensasiyalar dövlətə inamın sarsıntıya uğramasından daha az itki olar".

**Ekspert Fikrət Yusifov deyib ki, banklar müştəriləri yalnız dollar kreditləri götürməyə təhrik etməklə, düşdükləri bataqlığı daha da dərinləşdirirlər:** "Öz qazanclarını düşünməkdən başqa heç nəyin fərqində olmayan, yüngül yolla varlanmağı özlərinə seçim etmiş bu banklara, milli valyutamızı belə aşağılamaq imkanı verməк olmaz. Ölkə prezidentinin manatın nüfuzunu bərpa etmək yolunda ciddi addımlar atdığı bir dönəmdə, bankların bu özbaşınalığı başadüşülən deyil. Manat bu dövlətin milli valyutasıdır, dövlətçiliyimizin rəmzidir, onu əcnəbi valyutaların ayaqları altına atmaq ən azı vicdansızlıqdır. Milli valyutaya hər kəs hörmətlə yanaşmağa borcludur və bu işdə hamıdan daha çox borclu olan da elə banklar özləridir. Lakin bu gün kredit verdikləri müştərilərlə münasibətlərdə bütün oyun qaydalarını birtərəfli qaydada öz xeyirlərinə müəyyən etmiş banklar bir tərəfdən yeni kreditləri yalnız xarici valyutada təklif edir, digər tərəfdən isə xarici valyutada kredit götürmüş müştəriləri müxtəlif üsullarla aldadırlar". Ekspert banklar tərəfindən xarici valyutada kreditlərin verilməsinin qadağan edilməsini təklif edir. Həmçinin konstitusiyanın tələblərini kobud şəkildə pozaraq vətəndaşları xarici valyutada kredit götürməyə təhrik etmiş bank rəhbərlərinin məsuliyyətə cəlb edilməsinin vacibliyini vurğulayıb.

❑ RÖYA

# Neft 50 dollar olsa, manat qalxacaq?

## Ekspertlərin manat- neft paralelliyinə yanaşmaları fərqlidir




**Neftin qiymətinin hər gün dəyişməsi fonunda milli valyuta olan manatın stabilliyi də müzakirə olunur. Bəzi ekspertlər bildirirlər ki, neftin qiymətinin 50 dollar ətrafında sabitləşməsi problemdən çıxış yoludur. Yəni bu halda manat da sabitləşəcək və hətta bahalaşa bilər. Bildirilir ki, neftin qiymətinin dünya bazarında 50 dollara qalxması manatın ucuzlaşmaması üçün ilkin şərtdir. Bu halda manat yenidən dəyər qazanmağa başlayacaq. Rəyini soruşduğumuz ekspertlərin manat- neft paralelliyinə yanaşmaları fərqli oldu.**

**Natiq Cəfərli** məsələ ilə bağlı bildirib ki, Azərbaycan bundan sonra neftin qiymətinin qalxmasını gözləməli deyil: "Azərbaycanın indiki durumunda problem tək neftin qiymətinin aşağı düşməsi deyil, indi hasilat da azalır. Neftin qiymətinin yaxın iki ildə yenidən 50 dollar civarında olması, bununla paralel olaraq hasilatın azalması da görünəcək. Hasilat azaldıqca, Azərbaycanın əməliyyat xərcləri də artır. Bundan başqa, Azərbaycanın illik xərci artır. Dövlət büdcəsinin maliyyələşməsində artım müşahidə olunmalıdır. Çünki əhali sayımız artır. Azərbaycanın TANAP, TAP və "Şahdəniz-2" layihələri ilə bağlı öhdəlikləri var. Azərbaycan yaxın üç ildə təqribən 18 milyard dollara yaxın sərmayə qoymalıdır, çünki payçıdır. Yəni bu payını maliyyələşdirməlidir. Azərbaycanın kifayət qədər böyük xərcləmələri var. Lap neftin qiyməti 50 dollar olsa belə, Azərbaycana bu, kifayət etmir. Nə də manatın vəziyyətinin stabilləşməsinə kifayət etmir. Ən azından, kəskin sıçrayışlı manatın ucuzlaşmasına bir müddət müəyyən qədər pozitiv təsir göstərə bilər. Bu da uzunmüddətli və dayanıqlı deyil. Çünki ölkənin ixracatı yaxın zamanlarda azalmayacaq. Ölkəmiz ciddi şəkildə idxaldan asılıdır. Məhz bir çox məhsullarda bu, yüz faiz təşkil edir. Məsələn, dərmanda, uşaq yeməklərində, maşınqayırmada, elektrotexnikada, hazır geyimdə, bir çox sahələrdə bizim yüz faizli asılılığımız var. Bu asılılığımız hökumətin elan etdiyi rəqəmlərdən çoxdur. Müxtəlif hesablamalarda 60-65 faiz bizim ərzaqda da xaricdən asılılığımız var. Bütün bu asılılıqları nəzərə alaraq, ölkənin idxaldan asılılığı ölkədən valyutanın daha çox çıxmasına səbəb olacaq. Bu məsələ də gündəmə gələcək və ona görə də manatın taleyi 50 dollarla həll olunmur. Ən azından, neftin qiyməti 90-100 dollar civarında olmalıdır ki, müəyyən stabillik yaransın və manatın da güclənməsinə bir şərait olsun. Ona görə də 50 dollar Azərbaycan üçün kifayət deyil. Ən azından, qiymətin yaxın gələcəkdə də bu səviyyədə olması gözlənilmir. Ona görə də Azərbaycan hökuməti, hökumətyönlü iqtisadçılar da neftə ümid etməkdənsə, neftin qalxmasını gözləməkdənsə, ölkədə köklü islahatların necə və hansı yollarla aparılmasını düşünsələr, bununla bağlı təkliflər versələr, daha yaxşı olar. Dövlət başçısının o sözünü də xatırlamalarını istərdim ki, nefti unutmaq lazımdır. Nefti gərək Azərbaycanda 1994-cü ildən unudardıq. Yəni Norveç Azərbaycandan daha çox neft istehsal edir. Amma neftin qiymətindən ən az təsirlənən ölkələrdən biridir. Büdcəsinin cəmi 4 faizi neftdən asılıdır. Yəni Azərbaycan bu modelə üstünlük verməlidir. Oturub neftin qiymətinin qalxmasını gözləməli deyil".

**Ekspert Fikrət Yusifov isə musavat.com-a açıqlamasında bildirib ki, bundan sonra neftin qiyməti hansı həddə qalxsa da, manatı möhkəmləndirmək barədə düşünmək lazım deyil:** "Bundan sonra neftin qiyməti ətrafında baş verəcək proseslərin necə olmasından asılı olmayaraq, manatın möhkəmlənməsi haqqında düşünmək lazım deyil. Manatın məzənnəsinin sabit qalması haqqında düşünmək lazımdır. Əgər neft pulları çox daxil olacaqsa, neftin qiyməti il yarım, iki il bundan öncəki qiymət səviyyəsinə gedib çatacaqsa belə, ölkəyə daxil olan valyutaları rezervlərə yönəltmək, qızıl ehtiyatlarını artırmaq, böyük investisiya layihələri etmək, xaricdə daşınmaz əmlaka yatırmaq və başqa müxtəlif istiqamətlərdə istifadə etmək lazımdır. Ancaq tək manatın məzənnəsinin möhkəmlənməsinə yönəltmək olmaz onu. Yəni məzənnəni 1,64 səviyyəsində stabil saxlamaqdan söhbət gedir. Hazırda manat ətrafında bir problemimiz var. O da dollar kreditləri ilə bağlı problemdir ki, mütləq həll olunmalıdır".

❑ RÖYA

YENİ MÜSAVAT

Son səhifə

N 60 (6381) 16 mart 2016



## Kişilərin kompüter oyunlarına meyl etməsinin səbəbi bəlli oldu

ABŞ-ın Stenford Universitetinin alimləri funksional maqnit rezonans tomoqrafiyasının köməkliyi ilə kişilərin kompüter oyunlarına maraq göstərmələrinin səbəbini ayırd etmək qərarına gəliblər. Onlar bu nəticəyə gəliblər ki, kişilər qadınlara nisbətən kompüter oyunlarına 2-3 dəfə daha artiq aludə olurlar. Oyun zamanı qadınlardan fərqli olaraq kişilər daha çox ərazi qazanmağa müvəffəq olublar. Belə ki, kişilər hansı kürəciklərin ilk növbədə vurulacağını müəyyənləşdirərək onları zərərsizləşdiriblər. Məlum olub ki, oyun zamanı hər iki cinsdən olan oyunçuların beyinlərində həzzalma refleksinə cavab verən mezokortikolimbik sahə aktivləşməyə başlayıb. Lakin qadınlardan fərqli olaraq kişilərdə bu sahə daha aktiv olub. Alimlərin fikrincə, ərazi zəbt etməklə kişilər daha çox həzz alırlar. Alanın sözlərinə görə, tarixi faktlar da bu nəzəriyyənin həqiqiliyini sübut edir. Məhz bu xüsusiyyətə görə kişilər ərazi zəbt etmək imkanı verən oyunlara daha bağlı olurlar. Bundan əlavə, kişilər oyunun daha çox davam etməsində də maraqlı olurlar. Bu səbəbdən də kişilər aqressiya və işğalçılıq motivləri olan oyunlara daha çox maraq göstərirlər.

# 17 qramlıq robot qarışqalar 1800 kiloluq maşını dartıb

**17 qram ağırlığındakı altı ədəd kiçik robot qarışqa 1800 kilo ağırlığındakı bir maşını çəkə bilər. Stenford Universiteti araşdırmaçıları tərəfindən yaradılan MicroTug robotlar 6 insanın çəkmə gücünə sahibdir. Hətta bunun videosunu da çəkiblər. Biometriya mütəxəssisləri və Dexterous Manipulyasiya laboratoriyaları tərəfindən hazırlanan videoda bir ədəd mikrodaşıyıcı robotun öz ağırlığından 2000 dəfə artığını çəkə bildiyi üzə çıxıb. Laboratoriyanın işçilərindən olan Devid Kristens bildirib ki, bu robotların hazırlanması prosesində özündən böyük əşyaları daşıyan**




**qarışqalardan ilham alıblar. May ayında Stokholmda keçiriləcək konfransda isə onların daha inkişaf etmiş modelləri nümayiş etdiriləcək.**

# Duş almaq insanı stresdən çıxarır

**Türkiyəli psixoloq Prof. Dr. Gülden Güvenç stresdən uzaq olmaq üçün duş almağın faydalarından danışıb. Onun sözlərinə görə, imtahan verənlər də stress və depressiyadan uzaqlaşmaq üçün duş almağı seçim edə bilər. Bu sadə prosedur imtahan həyəcanını da azaltmağa kömək edir.**

Duş alarkən diqqət yetirilməsi lazım olan su istiliyi və duşda keçirilən müddətdir. Çox isti su dəridə tarazlığı pozaraq, bədəndəki təbii yağın yox olmasına səbəb olur. Uzun müddət suyun altında qalmaq isə dəri sağlamlığına mənfi təsir göstərə bilər. Bu baxımdan çox duşda olmamaq və duşdan sonra istəyə uyğun bitki mənşəli nəmləndiricilərdən istifadə etmək lazımdır. Dəri sağlamlığı üçün çirkli və ya küləkli yerlərdə olmamaq məsləhətdir.

Onu da qeyd etmək lazımdır ki, günəş şüaları xüsusilə bədəndə saxlanılan D vitamininin sintezləşməsində və sümüklərin inkişafında əhəmiyyətli rol oynayır.





## Yeni zibil qutuları yaşlı təqaüdçüləri izləyəcək

**Böyük Britaniyada yeni - izləyici zibil qutuları istifadəyə veriləcək. Üzərinə senzor quraşdırılmış qutular yaşlı sakinlərin müntəzəm olaraq zibil atmalarına nəzarət edəcək. Lenta.ru "The Telegraph"a istinadən xəbər verir ki, əgər təqaüdçü 2 həftə ərzində zibil qutusuna zibil atmasa, aparat bu barədə tibb işçilərinə xəbər ötürəcək. Bu aksiya Netsa xeyriyyə fondunun təşəbbüsü ilə həyata keçiriləcək. Ekspertlərin proqnozlarına görə, yaxın 10 ildə sensorlar ölkədəki bütün zibil qutularına quraşdırılacaq.**

Sensorlu zibil qutuları Bat və Cənubi-Şərqi Somersetdə artıq istifadəyə verilib. Hökumət orqanları hesab edirlər ki, bu qutular bələdiyyələrə ildə 21 milyon dollara yaxın vəsaiti qənaət etməyə imkan yaradacaq. Belə ki, onların olması işçilərin ixtisarına imkan verəcək.




**QOÇ** - Qarşınızda elə bir gün durub ki, Göy qübbəsi addımbaşı sizi sevindirə bilər. Hər an möcüzə gözləyin, amma özünüz də boş oturmayın. Bu təqvimdə ailə üzvlərinizə qayğınızı əsirgəməyin.

**BUĞA** - Nə qədər səmimi olsanız, hörmətiniz də bir o qədər artacaq. İstənilən münaqişədə tərəfsiz mövqe tutun ki, düşmənləriniz artmasın. Günün ikinci yarısında büdcəniz ağırlaşa bilər. Səfərə çıxmayın.

**ƏKİZLƏR** - Münasibətləri dərinləşdirmək üçün fürsətdir. Ürəyinizə yaxın bildiyiniz hər kəsə baş çəkməyə, heç olmasa zəng etməyə çalışın. Bugünkü addımlarınızdan asılı olaraq sizə qarşı münasibət müsbətə doğru dəyişə bilər.

**XƏRÇƏNG** - Xoş təsadüflərlə zəngin bir gün yaşayacaqsınız, hətta ola bilsin ki, çoxdan görmədiyiniz insanlarla da rastlaşasınız. Saat 15-18 aralığında isə maraqlı təkliflər alacağınız gözlənilir.

**ŞİR** - Pulsuzluğu özünüzə dərd hesab etməyin. Əsası odur ki, tənha qalmayasınız. Bu, bürcünüz üçün ən dözülməzidir. Yaxşısı budur, gücünüzü yarımçıq qalmış işlərin həllinə yönəldəsiniz.

**QIZ** - Bahar nəfəsinin duyulduğu bu təqvimdə mənəvi rahatlıq tapmaq sizin üçün o qədər də çətin olmayacaq. Üstəlik, ətrafınızda olan insanların sizə münasibətində müsbət amillər, hətta sürprizlər də mümkündür.

**TƏRƏZİ** - Paralel olaraq bir neçə işlə məşğul olmaq, həlledici məsələlərdə qətiyyət göstərmək bu gün üzərinizə düşən başlıca vəzifədir. Bir sözlə, bu gün istirahət və ya passiv olmaq barədə düşünməməlisiniz.

**ƏQRƏB** - İxtiyarınızda olan bu gündə pul məsələləri ilə bağlı hər hansı mübahisəyə getməyə dəyməz. Yaxşısı budur, səbrli olub uğurlu məqamınızı gözləyəsiniz. Problemlərdə vasitəcilərdən istifadə edin.

**OXATAN** - Maraqlı hadisələrlə rastlaşacağınız gözlənilir. Hətta könülaçan məclislərdə iştirak edə bilərsiniz. Yeni iş üslubuna keçmək barədə isə düşünməyin. Öz səhvlərinizə özünüz cavabdeh olmalısınız.

**OĞLAQ** - Göy qubbəsi yavaş-yavaş həyatın nəbzini tutduğunuzu proqnozlaşdırır. Məhz bu gündən etibarən daxili sarsıntılarınız da səngiyəcək. Odur ki, özünüzdə güc tapıb hərəkətə keçin.

**SUTÖKƏN** - Bu maraq dolu təqvimi daha çox dostlarınızla birlikdə keçirməyə çalışın. Başınıza gələn hər bir ideyanın böyük perspektivinə inanın. Gün ərzində maddi irəliləyişləriniz də gözlənilir.

**BALIQLAR** - Qarşınızda neytral bir gün durub. Bu səbəbdən qeyri-adi nəsə etməyə qalxmayın. Sənədləşdirmə məsələlərində diqqətli olun. Bu gün nəqliyyatla əlaqəli gərginlik olsa da, pul barədə uğurludur.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Tez-tez ac qalan adam çox yaşayır



**Alimlər ayrı-ayrı araşdırmalar çərçivəsində insan həyatını uzatmaqla bağlı nəticələrə gəlib. Bunlar "ömrü uzatmağın 10 yolu" adı altında toplanıb. Sözügedən yollardan biri insanın tez-tez ac qalmasıdır. Dünyada ən uzun yaşayan insanların yaşadığı Okinavada xalq tam doymadan yeməkdən əlini çəkir. İkinci yol dil öyrənməkdir. Dil öyrənmək daha çox insanla ünsiyyət və müsbət enerji qazanmaq anlamına gəlir. Dağlarda yaşamaq, genetik müalicə, varlanmaq, bir inanca sahib olmaq, dərmandan düzgün istifadə, orqan transplantasiyası, dünyada yaxşı işlər görmək də yaxşı yaşamağın qaydaları sırasındadır.**

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750